DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 09 (371) / SENTYABR 2022-Cİ İL




Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq.

Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**Prezident İlham Əliyev**
Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önündəki nitqi
27 sentyabr 2022-ci il

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ŞUŞADA YUXARI GÖVHƏR AĞA MƏSCİDİNİ ZİYARƏT EDİB, BURADA APARILAN YENİDƏNQURMA VƏ BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUBLAR





Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işləri 2021-ci ilin noyabr ayından başlayıb.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Yuxarı Gövhər Ağa məscidində konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa prosesi Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə aparılır.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universitetinin nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasına aparılır.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. Ermənistanın işğalı dövründə məscidə edilmiş müdaxilələr aradan qaldırılıb. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb.

Hazırda Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri davam etdirilir.

Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

# AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın yəhudi icmasını yeni il bayramınız Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimad mühitinin hökm sürdüyü Azərbaycanda məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudi icması yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayaraq özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini qoruyub saxlamış, tarixin heç bir dönəmində antisemitizm və ayrı-seçkiliklə üzləşməmişdir.

Əsrlər boyu ölkəmizdə mövcud olan multikultural dəyərlərin, dözümlülük prinsiplərinin və mədəni özünüifadə müxtəlifliyinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

Təqdirəlayiq haldır ki, yəhudi əsilli həmvətənlərimiz cəmiyyətimizin ayrılmaz hissəsi olaraq, digər xalqların və etiqadların nümayəndələri ilə birlikdə respublikamızda gedən böyük quruculuq işlərində yaxından iştirak edir, müasir Azərbaycanın inkişafı və tərəqqisi naminə səylərini əsirgəmir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirirlər.

Əziz dostlar!

Roş ha-Şana yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirir. Qoy, bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 sentyabr 2022-ci il

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ KÜRDƏMİRDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 14-də Kürdəmir rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib. Qəbulda Ucar, Göyçay, Zərdab və Kürdəmir rayon sakinlərinin ərizə, müraciət və təkliflərinə baxılıb.

Qəbuldan əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Vətəndaşların Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri Komitənin müvafiq bölgə şöbəsinin məsul şəxsinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Dövlət Komitəsinin sədri sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədimizdə törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan Xüsusi Təyinatlı Qüvvələrin giziri Kürdəmir rayon Dəyirmanlı kənd sakini Əzizov Nəzər Ağacəlil oğlunun dəfn mərasimində də iştirak edib.



# 2023-CÜ İL AZƏRBAYCANDA “HEYDƏR ƏLİYEV İLİ” ELAN EDİLİB

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda deyilir:



2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 sentyabr 2022-ci il

# “ŞUŞA - QARABAĞIN DÜNƏNİ, BU GÜNÜ, SABAHI”: SAATLI MƏSCİDİ

Ölkə başçısının “Şuşa İli” elan edilməsi haqqında Sərəncamına əsasən Azərbaycan İstiqlal Muzeyi tərəfindən həyata keçirilən “Şuşa - Qarabağın dünəni, bu günü, sabahı” adlı layihə davam edir.

Muzeydən AZƏRTAC-a bildirilib ki, layihə çərçivəsində növbəti təqdimat Şuşa şəhərinin Saatlı məhəlləsində yerləşən tarixi məscid - Saatlı məscidinə həsr olunub.

Məscid Qarabağda bir neçə monumental dini və mülki tikilinin, o cümlədən Şuşada Aşağı və Yuxarı Gövhər Ağa məscidləri, Ağdamda Cümə məscidi və Bərdə İmamzadə türbəsinin müəllifi olan memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında 1883-cü ildə inşa edilib. Bu barədə məlumat məscidin əsas fasadında yerləşdirilmiş inşaat kitabəsində verilir. Məscidin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub.

1980-ci illərdə məsciddə restavrasiya işləri aparılıb. Məscid Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb.

Şuşanın işğalından sonra xarabalığa çevrilən məscidin zəngin interyeri tamamilə, minarəsi isə qismən dağıdılıb.



# MÜSAHİBƏDƏ UĞUR QAZANARAQ TƏYİNAT ALAN DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 24 may 2022-ci il tarixində "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na uyğun olaraq, 39 vakant vəzifənin tutulması üçün elan edilən müsahibədə 251 nəfər namizəd arasında müvəffəqiyyət qazanan 133 nəfərdən ən yüksək bal toplayaraq təyinat alan din xadimləri ilə görüş keçirilib.

Sentyabrın 20-də baş tutan görüşdə çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkədəki dini durumdan, dövlət-din münasibətlərinin yüksək səviyyəsindən, dini dəyərlərə və din xadimlərinə qayğıdan bəhs edib. Bildirib ki, Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət və həssaslıqla yanaşırlar.

Dindən siyasi məqsədlər üçün istifadənin yolverilməzliyi və buna qarşı mübarizədə birliyin vacibliyi barədə də danışan Dövlət Komitəsinin sədri qeyd edib ki, din insanların şüuruna və cəmiyyətə təsir göstərmək üçün güclü vasitədir. Onun cəmiyyət, ümumilikdə bəşəriyyət üçün əhəmiyyətini məkrli qüvvələr də yaxşı başa düşür və bəzən bundan çirkin əməlləri üçün istifadə edirlər. Nəticədə insanları birliyə, vəhdətə çağıran dinlər mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində şəxsi və ya qrup maraqlarına "xidmət" üçün vasitəyə çevrilir. Bu baxımdan mənəvi dəyərlərimizin tərkib hissəsi olan dindən dövlətçiliyimizə qarşı istifadənin qarşısının alınmasında din xadimlərinin, dini icma sədrlərinin aktivliyi xüsusi önəm daşıyır, o cümlədən, dinlərarası dialoqun və əməkdaşlığın reallaşmasında, Vətənimizə bağlılıq hissinin gücləndirilməsində, milli-mənəvi, tolerant dəyərlərin təbliğində din xadimlərinin üzərinə daha böyük vəzifə və məsuliyyət düşür. Çünki din xadimləri təkcə özlərinin deyil, onların arxasınca gedən yüzlərlə, minlərlə mömininin mövqeyinə, eləcə də dini dünyagörüşünün formalaşmasına görə, ən azı, mənəvi məsuliyyət daşıyırlar.

Din xadimlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayan Komitə sədri bu işlərin Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə həyata keçirildiyini və İdarənin fətvalarının yerinə yetirilməsinin zəruriliyini onların diqqətinə çatdırıb.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavinləri Sahib Nağıyev və Gündüz İsmayılov din xadimlərinə tövsiyələrini verərək üzərilərinə düşən borcu layiqincə yerinə yetirəcəklərinə, onlara həvalə edilən vəzifəni uğurla həyata keçirəcəklərinə ümidvar olduqlarını vurğulayıblar.

Görüşdə din xadimlərinin fikirləri və təklifləri dinlənilib, çıxışçılar dövlət tərəfindən dinə və din xadimlərinə göstərilən diqqəti yüksək dəyərləndiriblər.

İslam dininə aid ibadət yerlərinə (məscidlər) din xadimlərinin təyin edilməsi ilə bağlı müsahibədə uğur qazanaraq təyinat alan din xadimlərinin siyahısını təqdim edirik:

## İslam dininə aid ibadət yerlərinə (məscidlər) təyin edilmiş şəxslərin siyahısı

| № | Təyin olunacaq namizəd | Təyin olunduğu məscid | Vəzifəsi |
|---|---|---|---|
| 1. | Ağamirzəzadə Mirzəli Əfrahim oğlu | Səbail rayonu, "Həzrət Məhəmməd" məscidi | İmam |
| 2. | Səmədov Vüqar Həsən oğlu | Yasamal rayonu, "İlahiyyat" məscidi | İmam |
| 3. | Əliyev Şahəli Gülağa oğlu | Şirvan şəhəri, "Həzrət Əbülfəz" məscidi | İmam |
| 4. | Muxtarzadə Tural Firudin oğlu | Zaqatala rayonu, Çobankol kənd məscidi | İmam müavini |
| 5. | Xəlilov Xəzər Məhəmmədiyə oğlu | Qax şəhəri, "Mərkəzi Cümə" məscidi | İmam |
| 6. | Əliyev Taleh Elman oğlu | Lənkəran rayonu, Lüvəsər kənd məscidi | İmam müavini |
| 7. | Bəhrəmov Elman Qəribəli oğlu | Lənkəran rayonu, İstisu qəsəbə məscidi | İmam müavini |
| 8. | Əsədli Bəhmən Aydın oğlu | Biləsuvar rayonu, İsmətli kənd məscidi | İmam müavini |
| 9. | Hüseynov Rayic İlyas oğlu | Cəlilabad şəhəri, "Cümə" məscidi | İmam müavini |
| 10. | Hacıyev Vahid Zəkəriyyə oğlu | Xaçmaz rayonu, Xudat kənd məscidi | İmam müavini |
| 11. | Eyvazlı Eyvaz Babək oğlu | Qobustan şəhəri, "Cümə" məscidi | İmam müavini |
| 12. | Ələddinov Murtaza Müfti oğlu | Quba rayonu, Ağbil kənd məscidi | İmam müavini |
| 13. | Kərimov Vüqar Əli oğlu | Ağcabədi rayonu, Avşar kənd məscidi | İmam müavini |
| 14. | Mustafayev Tural Sahib oğlu | Oğuz rayonu, Kərimli kənd məscidi | İmam |
| 15. | Müzəffərov Niyaməddin Əflәddin oğlu | Siyəzən şəhəri, "Cümə" məscidi | İmam |
| 16. | Xudaverdili İmran Məmməd oğlu | Siyəzən şəhəri, "Cümə" məscidi | İmam |
| 17. | Cəfərov Cəfər Qəfər oğlu | Neftçala şəhəri, "Sahib-əz-Zaman" məscidi | İmam |
| 18. | Babayev Ramazan Müfəlif oğlu | Quba şəhəri, "Ağməscid" məscidi | İmam |
| 19. | Məmmədzadə Allahverən Davud oğlu | Suraxanı rayonu, Hövsan qəsəbəsi, "Höccət ibn Həsən" məscidi | İmam |
| 20. | Əsimov Nurlan Daşpolad oğlu | Şirvan şəhəri "Cümə" məscidi | İmam |
| 21. | Əlizadə Hüseyn Talıb oğlu | Şirvan şəhər məscidi | İmam müavini |
| 22. | Dəmirzadə Mehrab Fəxrəddin oğlu | Suraxanı rayonu, Bülbülə qəsəbə məscidi | İmam müavini |
| 23. | Rəcəbov Elvin Eynulla oğlu | Yasamal rayonu, "Xanım Zəhra" məscidi | İmam müavini |
| 24. | Əliyev Tural Nüsrəddin oğlu | Zaqatala rayonu, Lahıc kənd məscidi | İmam müavini |
| 25. | Balayev Röya Cəlil oğlu | İsmayıllı rayonu, "Məhəmmədiyyə" məscidi | İmam |
| 26. | Əlixanov Sərxan Məhəmməd oğlu | Zaqatala rayonu, Faldarlı kənd məscidi | İmam müavini |
| 27. | Nooyev Başir Məhəmməd oğlu | Balakən rayonu, Şərif kənd məscidi | İmam müavini |
| 28. | Nürəddinov Səbuhi Eyyub oğlu | Xaçmaz rayonu, Qımılqışlaq kənd məscidi | İmam müavini |
| 29. | Mirzəliyev Vüsal Rəşid oğlu | İsmayıllı rayonu, Mican kənd məscidi | İmam müavini |
| 30. | Eyvazov Taleh Gəray oğlu | Yevlax rayonu, "Cümə" məscidi | İmam müavini |
| 31. | Nuriyev Tofiq Dədəbala oğlu | Şamaxı rayonu, Sabir qəsəbə məscidi | İmam müavini |
| 32. | Məhərrəmov Məzahir Saqi oğlu | Yasamal rayonu, "İlahiyyat" məscidi | İmam müavini |
| 33. | Mehdiyev Ruslan Rəsul oğlu | Binəqədi rayonu, Biləcəri qəsəbəsi 1 məhəllə məscidi | İmam müavini |
| 34. | Süleymanov Gündüz Sayad oğlu | Suraxanı rayonu, Qaraçuxur qəsəbə məscidi | İmam |
| 35. | Cəfərov Əyanat Mamed oğlu | Qaradağ rayonu, Müşfiqabad qəsəbə məscidi | İmam |
| 36. | Bağırov Nazim Heydər oğlu | Abşeron rayonu, Novxanı qəsəbəsi "Həmzə" məscidi | İmam |
| 37 | İsmayılov Təsvir İsmət oğlu | Abşeron rayonu, Mehdiabad qəsəbə məscidi | İmam |
| 38 | Xəlilov Rövşən Firudin oğlu | Xırdalan şəhəri, "Cümə" məscidi | İmam |
| 39 | Ağayev Elmin Səlim oğlu | Masallı rayonu, "Hişkədərə" kənd məscidi | İmam |
| 40 | Nağıyev Mirnasir Mirbağır oğlu | Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi | İmam |
| 41 | Qasımzadə Fərid Əli oğlu | Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi | İmam müavini |
| 42 | Həşimov Ayaz Gülağa oğlu | Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi | İmam müavini |
| 43 | Əliyev Asif Nurəddin oğlu | Gəncə şəhəri "Qırıxlar" məscidi | İmam |

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Sentyabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Amerika-Azərbaycan Cəmiyyətinin (ASA) rəhbəri Tomris Azerinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Mübariz Qurbanlı Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, dövlətin dinə qayğısı, o cümlədən tolerant və multikultural dəyərlərin təbliği sahəsində görülən işlər haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda dini etiqad azadlığının təmin olunması dövlət-din münasibətlərinin əsasında dayanan mühüm faktordur. Ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub saxlamaq imkanına malikdir.

Görüş zamanı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin başçılığı ilə xalqımızın 44 günlük Vətən müharibəsindəki parlaq zəfərinə toxunan Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycan döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də qələbə qazanmaqla mübarizəsinin haqq işi olduğunu sübut etdi. Düşmən üzərində əldə etdiyimiz zəfərdə, Azərbaycançılıq ideyası ətrafında milli həmrəyliyin daha da güclənməsində, xüsusilə, Qarabağ həqiqətlərinin təbliğində qəlbi daim Vətənlə döyünən soydaşlarımızın geniş fəaliyyəti olub. O, həmçinin ASA-nın Azərbaycan həqiqətlərinin Amerika ictimaiyyətinə çatdırılmasındakı rolunun cəmiyyət tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Tomris Azeri səmimi qəbula görə təşəkkür edərək təmsil etdiyi cəmiyyətin fəaliyyəti, həyata keçirilən layihələr haqqında danışıb.

Sonda nümayəndə heyətinə DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də vandalizmə məruz qalan tarixi-dini abidələrimizdən bəhs edən kitablar təqdim edilib.

***

Sentyabrın 13-də DQİDK sədri Mübariz Qurbanlı Varşava Böyük Keşişlər Seminariyasının rektoru Voyçex Bartkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan DQİDK sədri bu səfərin dini-mədəni əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini ifadə edib. Azərbaycanda dövlət-din münasibətləri, həmçinin dövlətin din sahəsindəki siyasəti, Dövlət Komitəsinin fəaliyyəti barədə geniş məlumat verən Mübariz Qurbanlı Azərbaycanın malik olduğu nümunəvi multikulturalizm və tolerantlıq modelindən söhbət açıb. Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə tolerantlıq ənənələri daha da inkişaf edərək dövlət siyasətinə çevrilib. 37-si qeyri-İslam təmayüllü olmaqla 993 dini qurum dövlət qeydiyyatına alınıb. Dövlət Komitəsinin sədri bildirib ki, ölkəmizdə dinə yüksək səviyyədə dövlət qayğısı var və bu qayğı bütün konfessiyaları əhatə edir. İbadət evlərinin təmiri, bərpası və əsaslı şəkildə qurulması, yenilərinin tikilməsi istiqamətində dövlət tərəfindən bir sıra layihələr həyata keçirilir. Dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədi ilə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidenti İslam və qeyri-İslam təmayüllü dini qurumlara maliyyə vəsaiti ayırır.



Səmimi qəbula görə təşəkkür edən Voyçex Bartkoviç səfər çərçivəsində səmərəli görüşlərin keçirildiyini, qədim tarixə malik alban abidələri, kilsə, sinaqoq və məscidləri ziyarət etdiklərini deyərək ölkədəki tolerantlıq mühitini, xalqımızın qonaqpərvərliyini yüksək dəyərləndirib.

Polşa Mədəniyyət və Mədəni İrsin Qorunması üzrə Yepiskopluğu Şurasının sədri Mixal Yanoxa isə vurğulayıb ki, Azərbaycanda dinlərarası harmoniyanın nadir nümunəsi, eləcə də ölkənin tolerantlıq və multikultural dəyərlərə ən yüksək səviyyədə diqqət yetirməsi, müxtəlif dinlərə aid ibadətgahlara qayğısı nümayəndə heyətində dərin təəssürat yaradıb. O, həmçinin bu cür səfərlərin təşkil edilməsinin tolerantlığın qorunması və təşviqi baxımından böyük önəm daşıdığını qeyd edib.

Sonda nümayəndə heyətinə DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də erməni qəsbkarları tərəfindən vandalizmə məruz qalan tarixi-dini abidələrimizdən bəhs edən kitablar təqdim edilib.

# DSX-NİN SƏRHƏD NƏZARƏTİNDƏ DİNİ RADİKALİZMLƏ MÜBARİZƏYƏ HƏSR EDİLMİŞ SEMİNAR KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Dövlət Sərhəd Xidməti (DSX) arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq sentyabr ayının 28-də DSX-nin Sərhəd Nəzarətində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda növbəti seminar keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxış edərək, dini radikalizmin mahiyyəti və onunla mübarizə yollarından danışıb. Azərbaycanda dini radikalizmə qarşı fəal və məqsədyönlü maarifləndirmə işlərinin aparılması, gənclərin radikal dini cərəyanların təsirindən qorunmasının vacibliyi, eyni zamanda dini radikalizmin fəsadları barədə geniş məlumat verib.

Tədbirdə Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın multikulturalizm, tolerantlıq dəyərləri təbliğ edən ölkələrdən olması, milli-dini birlik ideyasının dövlət siyasəti səviyyəsində həyata keçirildiyi, hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunmasına dəstək göstərildiyi bildirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə döyüşmələri, "Dəmir Yumruq" ətrafında həmrəylik nümayiş etdirmələrinin bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsi olması vurğulanıb.

Seminarda ölkəmizdəki tolerantlıq ənənələrinə, dini etiqadı siyasiləşdirməklə milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə təhlükə yarada bilən meyillərlə mübarizədə hər bir vətəndaşın həssaslıq göstərməsinin vacibliyi qeyd olunub.

Tədbirin sonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında hazırlanmış "Dəmir yumruq" sənədli filmi şəxsi heyətə nümayiş etdirilib.

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDU DİN XADİMLƏRİ VƏ DİNİ İCMA SƏDRLƏRİ ARASINDA MÜSABİQƏ ELAN EDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu 8 Noyabr – Zəfər Günü münasibətilə ölkəmizdə fəaliyyət göstərən din xadimləri və dini icma sədrləri (İslam və qeyri-islam) arasında "Haqqın zəfəri" adlı müsabiqə elan edir.

Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı kateqoriyalar və istiqamətlər üzrə qəbul ediləcək.

Kateqoriyalar:

1. Məqalə (Arial 12 şrift, 1.5 aralıq, A4 vərəq, maksimum 3 səhifə)
2. Şeir (maksimum 7 bənd)
3. Hekayə (Arial 12 şrift, 1.5 aralıq, A4 vərəq, maksimum 3 səhifə)

İstiqamətlər:

1. Vətənpərvərlik və dini mənəvi dəyərlər
2. Azərbaycanda dini həmrəylik və birgəyaşayış ənənəsi
3. Tarixi-dini abidələr
4. Dövlətçiliyimizin möhkəmlənməsində mənəvi dəyərlərin rolu
5. Milli birliyimiz zəfərin təminatçısıdır

Müsabiqənin şərtləri:

1. Müsabiqədə iştirak etmək istəyən hər bir şəxs yalnız bir kateqoriya və bir istiqamət üzrə material təqdim edə bilər.
2. Müsabiqəyə təqdim edilən material müəllifin özünə məxsus olmalı, plagiat xarakteri daşımamalıdır.

Qeyd 1: Müsabiqədə iştirak etmək istəyən şəxslər hazırladıqları materialları Mənəvi Dəyərlərin Təbliği Fonduna aşağıdakı formalardan birini seçməklə təqdim edə bilər:

1) mdtf.press@gmail.com elektron poçt ünvanına göndərməklə

2) elektron daşıyıcıda (disk, fləş-kart) birbaşa və ya poçt vasitəsilə

Qeyd 2: Müsabiqə materialları Fonda təqdim olunan zaman aşağıdakı məlumatlar mütləq qeyd edilməlidir:

1) Ad, soyad, ata adı

2) Əlaqə nömrəsi

3) Vəzifəsi göstərilməklə din xadimi kimi fəaliyyət göstərdiyi ibadət yerinin adı

4) Sədri olduğu dini icmanın adı

Mükafat

I yer (bir nəfər) - 800 AZN

II yer (iki nəfər) - 600 AZN

III yer (üç nəfər) - 400 AZN

Hər biri 150 AZN olmaqla 5 həvəsləndirici mükafat

Son müraciət tarixi 2022-ci il oktyabrın 20-sidir.

Əlaqə vasitələri:

Tel: (012) 436-98-54, mobil: (055) 228-49-80

E-mail: mdtf.press@gmail.com

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, M.Naxçıvani küçəsi, 29

# BAKIDA “İSLAM MƏDƏNİYYƏTİNDƏ BİRGƏYAŞAYIŞ TƏCRÜBƏSİ” MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUM KEÇİRİLİB

Sentyabrın 20-21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu (AİI), Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF), Kırıkkale Universitetinin İslam elmləri fakültəsi və İslam Ölkələri Tədqiqat Mərkəzinin birgə təşkilatçılığı ilə “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda beynəlxalq simpozium keçirilib.

Əvvəlcə ərazi bütövlüyümüzün qorunması uğrunda şəhid olanların ruhu bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra torpaqlarımızın qorunması uğrunda şəhid olanların ruhlarına hörmət əlaməti olaraq, AİI-nin tələbəsi Əmrah Eminovun təqdimatında Quran tilavəti təqdim edilib.




Açılış nitqi ilə çıxış edən AİI rektoru, dosent Aqil Şirinov müasir dünyada birgəyaşayış çərçivəsində ortaya çıxan böyük problemlərin əsas amillərindən birinin milli, irqi və dini müstəvidə artan ayrı-seçkilik olduğunu nəzərə çatdırıb. Bildirib ki, etiqad və məzhəb zəminində baş verən ayrı-seçkilik və münaqişələr elm və irfandan uzaq olan bəzi dini qrupları müsəlman dünyasına yönəldilmiş planların könüllü iştirakçılarına çevirir: “Bütün bunlar bizi İslam Şərqində və mədəniyyətində birgəyaşayış ənənəsini, tarixi təcrübələri, Həzrət Məhəmmədin həyat fəlsəfəsinə bağlı prinsipləri yenidən gözdən keçirib təhlil etməyə, İslam mədəniyyətinin şifrələrini və bu mədəniyyətin müqəddəs mətnlərini doğru oxumağa sövq edir”.

A.Şirinov Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan dini dəyərlərə hörmət və qayğı, eyni zamanda birgəyaşayış ənənələrin təbliğinə əsaslanan nəcib siyasəti hazırda Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb.

Simpoziumun İslam mədəniyyətində birgəyaşayış təcrübəsinin tədqiqinə öz töhfəsini verəcəyindən əmin olduğunu söyləyən AİI rektoru tədbirin işinə uğurlar arzulayıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov İslamın əsas qaynaqlarından nümunələr gətirərək birgəyaşayış məsələsinə toxunub. Bildirib ki, sonrakı dövrlərdə, xüsusən də son bir neçə əsrdə Qərb mədəniyyətinin hakim mədəniyyətə çevrilməsi İslam mədəniyyətinin bu böyük ənənə və təcrübəsinə kölgə salmış, əvəzində, dinimizin və mədəniyyətimizin adı “terrorizm”, “ekstremizm”, “radikalizm” və s. kimi mənfi qavramlarla birgə anılmağa başlanmışdır.

M.İsmayılov vurğulayıb ki, bu böyük mirası dünya ictimaiyyətinə təqdim və təbliğ etməkdə çox aktiv olmalıyıq: “İslam mədəniyyətinin bir parçası olan Azərbaycan da keçmişdən bu günə çox zəngin birgəyaşayış ənənələrinə sahibdir və dövlətimiz bu sahəyə bu gün də böyük diqqət göstərir. Etnik, mədəni, dini, məzhəb və s. cəhətdən müxtəlifliyin olduğu ölkəmizdəki birgəyaşayış mühiti bəşəriyyətin birgəyaşayışına öz töhfəsini verir. Bu mühit sadəcə qanunlara deyil, həm də kökləri dərində olan böyük mirasa söykənir”.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, professor Mevlüt Erten qeyd edib ki, İslam mədəni mühitinin birgəyaşayışla bağlı bir çox dəyərə və zəngin tarixi təcrübələrə sahib olduğunun şahidiyik. Mevlüt Erten qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın rolu xüsusi vurğulanmalıdır.

M.Erten “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda keçirilən beynəlxalq simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Beynəlxalq simpozium iştirakçılarını salamlayan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda birgəyaşayış ənənəsi, millimənəvi miras və dövlət siyasəti barədə danışıb. Bildirib ki, din insanların mənən zənginləşməsində geniş təsir imkanlarına malikdir. Bununla bərabər, dinin insanların həyatındakı rolunu danmaq, funksiyalarından düzgün faydalanmamaq, habelə ondan sui-istifadə hallarına yol vermək dövlət və cəmiyyət qarşısında yeni problemlər və təhlükələr yarada bilər.

Dövlət Komitəsinin sədri vurğulayıb ki, İslam Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri, onun tarixinin ayrılmaz tərkib hissəsidir. Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan, milli-mənəvi dəyərlərə qayıdışın əsasını qoyan, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərən, ölkədə dini etiqad, inanc azadlığını tam təmin edən dövlət-din münasibətləri modeli Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm ölkə daxilində, həm də ölkə xaricindəki dini abidələrin, ibadət evlərinin təmir və bərpa olunmasında, dini-mədəni irsimizin qorunub saxlanması, milli-mənəvi dəyərlərimizin dünyada tanıdılması, habelə dini abidələrin bərpasına qayğı göstərilməsində əvəzsiz xidmətləri vardır.

Komitə sədri simpoziumun qarşıya qoyduğu məqsədə çatacağına, müsəlman cəmiyyətləri arasında birgəyaşayış təcrübəsi modellərini uğurla təqdim edəcəyinə əminlik duyduğunu bildirib və onun işinə müvəffəqiyyət arzu edim.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev isə qeyd edib ki, dinimiz təkcə müsəlmanlara qayğı göstərməyi buyurmur: “Dinimiz dinindən asılı olmayaraq, ehtiyacı olan hər kəsə yardım etməyi əmr edir. Birgəyaşayış, dinlərarası qardaşlıq, dostluq məhz bu əməllər üzərində qurulur, formalaşır. “Əl-Bəqərə” surəsində qeyd edilir ki, dində məcburiyyət yoxdur. Yəni, ayinləri kiməsə məcburi surətdə qəbul etdirmək olmaz. İslamda həmçinin digər dinlərə mənsub şəxslərin ibadət yerlərinə də hörmətlə yanaşmaq buyurulur. Belə dəyərlər təkcə insanlar arasında deyil, eyni zamanda dövlətlərarası münasibətlərin də tənzimlənməsində böyük rol oynayır”.

Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov isə qeyd edib ki, birgəyaşayış sağlam ictimai münasibətlər mühitinin formalaşması, fərdi və sosial planda təhlükəsizliyin təmin olunması üçün əvəzedilməz dəyərdir. Təsadüfi deyil ki, birgəyaşayış demokratik və multikultural cəmiyyətimizin əsas dəyərlərindən biri kimi, ölkəmiz üçün də əhəmiyyəti gedərək artan məsələlərdəndir. C.Məmmədov beynəlxalq simpoziumun işinə uğurlar arzulayıb.

Simpoziumun açılış mərasimində İzmir Katip Çelebi Universitetinin rektoru, professor Saffet Köse, “Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetinin rektoru, professor Məhəmməd əl-Şəhhat əl-Cindi, Müsəlman İnstitutunun sədri Sahibzada Sultan Ahmed Ali, Bolqar İslam Akademiyası rektorunun köməkçisi Rustem Gilmutdinov, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Araz Qurbanovun da çıxışları dinlənilib.

Qeyd edək ki, “İslam mədəniyyətində birgəyaşayış təcrübəsi” mövzusunda beynəlxalq simpozium açılış mərasimindən sonra panellərlə davam etdirilib.

Simpoziumun keçirilməsində məqsəd İslam mədəniyyəti kontekstində fərqli din nümayəndələrinin birgəyaşayışı ilə bağlı vəziyyəti müzakirə etmək; müsəlman cəmiyyətləri arasında bu istiqamətdə mövcud təcrübələrdən yararlanmaq və onları təşviq etmək; müvafiq sahə üzrə mütəxəssis və araşdırmaçıların verdikləri töhfələri üzə çıxarmaq, qorumaq və gələcək nəsillərə ötürmək; həmin istiqamətdə elmi, siyasi, ictimai və fərdi tədqiqatların artırılmasına zəmin yaratmaqdı.

# “XANIM FATİMEYİ ZƏHRA” MƏSCİDİNƏ TƏYİN OLUNMUŞ DİN XADİMLƏRİNİN TƏQDİMATI KEÇİRİLİB

Sentyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Yeni Günəşli yaşayış sahəsində yerləşən “Xanım Fatimeyi Zəhra” məscidinə təyin olunmuş din xadimlərinin təqdimatı keçirilib.

Məlumat üçün bildiririk ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 24 may 2022-ci il tarixində “İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası”na uyğun olaraq 39 vakant vəzifənin tutulması üçün müsahibə elan olunub. Mirnasir Mirbağır oğlu Nağıyev (imam), Fərid Əli oğlu Qasımzadə və Ayaz Gülağa oğlu Həşimov (imam müavinləri) 02 avqust-13 avqust tarixlərində keçirilən müsahibədə uğur qazanaraq müvafiq vəzifələrə təyin olunublar.

Qeyd edək ki, sözügedən məsciddə keçirilən təqdimatda Dövlət Komitəsi ilə yanaşı, Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndələri də iştirak ediblər.

# «DÜNYƏVİ DÖVLƏTDƏ DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİ»




Sentyabrın 8-9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Astara Rayon İcra Hakimiyyətinin (RİH) təşkilatçılığı ilə Astarada "Dünyəvi dövlətdə dini maarifləndirmə işinin təşkili" mövzusunda seminar-treninq keçirilib.

Din xadimləri, dini icma üzvləri və rayon ziyalılarının iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev dövlətin dini sahəyə göstərdiyi qayğıdan danışıb, eyni zamanda rayondakı mövcud dini durum və dini maarifləndirmə sahəsində görülən işlər barədə məlumat verib.

DQDİK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov isə bölgədəki tolerant və multikultural mühitdən danışıb. O qeyd edib ki, Astara rayonunda İslamın hər iki məzhəbinin nümayəndələri əsrlərdir birgə yaşayıb və bu həmrəylik bu gün də davam edirilir.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov dövlətin dinə qayğısı və dini maarifləndirmə işinin düzgün təşkili barədə ətraflı məlumat verib.

O bildirib ki, ölkəmizin unitar, hüquqi, dünyəvi və demokratik dövlət olduğu Konstitusiyamızda öz əksini tapıb. Dünyəvi dövlətdə əqidəsindən asılı olmayaraq hər bir fərdin dini seçim azadlığı tanınır. Azərbaycanda dini baxışından asılı olmayaraq hər kəs qanun qarşısında bərabərdir. Dövlətin dindən ayrı olmasına baxmayaraq, dindarın dövlətdən ayrı olmadığını qeyd edən sədr müavini bildirib ki, hər bir dindar dövlətimizin qayğısı ilə əhatə olunub.

Bildirilib ki, bu gün Azərbaycanda dövlət-din münasibətləri yüksələn xətlə inkişaf edir. Bunun nəticəsidir ki, bu gün xalqın keçmişinə, milli-mənəvi dəyərlərinə dövlət səviyyəsində qayğı göstərilir. Xalqımız öz milli, dini bayramlarını rahat şəkildə yaşamaq hüququ qazanıb, erməni qəsbkarları tərəfindən dağıdılmış ibadət ocaqları yenidən bərpa olunub. Bütün bunlar demokratik dəyərlərin, tolerantlıq prinsiplərinin təcəssümü, o cümlədən Azərbaycanın davamlı inkişafının və daxili sabitliyin qarantıdır.

O qeyd edib ki, ölkədə gənclərə milli-mənəvi dəyərlərin, vətənpərvərlik hisslərinin aşılanması və onlar arasında ideoloji maarifləndirmənin həyata keçirilməsi, dini sahədə xarici ideoloji təsirlərin mənfi təzahürlərini nəzərə alaraq maarifləndirmə işinin aparılması dövlətin din siyasətinin prioritet istiqamətini təşkil edir. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

44 günlük Vətən müharibəsindən danışan Gündüz İsmayılov qeyd edib ki, bu qələbənin təmin olunmasında ölkədə mövcud olan milli-dini həmrəyliyin, o cümlədən xalq-iqtidar birliyinin mühüm rolu olub.

***

Bu qəbildən olan növbəti seminar-treninq 21-22 sentyabr tarixlərində DQİDK və Şabran RİH-in birgə təşkilatçılığı ilə baş tutub.

Din xadimləri, dini icma üzvləri və rayon ziyalılarının iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Vasif Əhmədov mövzunun əhəmiyyətindən danışıb. Eyni zamanda rayondakı dini durum barədə ətraflı məlumat verib.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov



ölkədə mövcud olan dövlət-din münasibətləri, o cümlədən tolerant və multikultural mühitdən danışıb. Sədr müavini qeyd edib ki, Azərbaycan dövlətinin vətəndaşların dini etiqad azadlığını təmin etmək sahəsində həyata keçirdiyi siyasət bu gün öz müsbət bəhrəsini verməkdədir: "Hazırda ölkədə dini durum sabitdir. Respublikamızda dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyə yol verilmir. Bu gün xalqın keçmişinə, milli-mənəvi dəyərlərinə dövlət səviyyəsində qayğı göstərilir".

Gündüz İsmayılov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun şücaəti sayəsində işğal altında olan torpaqlarımızın azad edildiyini və Azərbaycan dövləti, eləcə də Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həmin bölgədəki ziyarətgahlarımızın, dini ibadət yerlərinin bərpa edildiyini və yenidən qurulduğunu diqqətə çatdırıb. Dövlət Komitəsinin sədr müavini bunun ölkə rəhbərliyinin dini-mənəvi dəyərlərimizə hörmət və ehtiramının, diqqət və qayğısının bariz nümunəsi olduğunu bildirib.

Daha sonra çıxış edən DQDİK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev dini maarifləndirmə sahəsində görülən işlər barədə məlumat verib.

Tədbirlərin sonunda iştirakçıların sualları cavablandırılıb.

# "AZƏRBAYCAN QADINININ TOLERANT VƏ MÜTƏRƏQQİ CƏMİYYƏTİN FORMALAŞMASINDA ROLU"



Sentyabrın 8-9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yardımlı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycan qadınının tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında rolu" mövzusunda ikigünlük seminar keçirilib.

Rayonun fəal qadınları, təhsil işçiləri, psixoloqlar, gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova tolerant və multikultural ənənələrin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunmasının önəmi barədə danışıb. Vurğulayıb ki, gənclərin humanizm, vətənpərvərlik, tolerant və milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edilməsi sağlam gələcəyin təməllərinin inşasında ən vacib şərtlərdəndir. Zərərli dini meyillərin yol açdığı təhdidlər və onların multikultural cəmiyyətə təsiri barədə də danışan E.Kərimova bu kimi mənfi tendensiyalarla mübarizədə cəmiyyətin bütün təbəqələrinin, xüsusən qadınların iştirakının vacibliyinə diqqət çəkib. "Azərbaycan qadınının cəmiyyətdə rolunun bundan sonra da yüksəldilməsi, millilik və müasirliyin vəhdətində öz mövqeyini gücləndirməsi çox vacib amildir. Ölkəmizdə qadının sosial-siyasi həyatda fəal iştirakının reallaşdırılması və davamlılığının təmin edilməsi üçün ilk növbədə ailədə və cəmiyyətdə maarifləndirmə işləri aparılmalıdır", – deyə şöbə müdiri əlavə edib.

"Sosial media və dindarlıq" mövzusunda təqdimatla çıxış edən DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva əvvəlcə tədbir iştirakçılarını mövzu ilə bağlı əsas anlayışlarla tanış edib. Cəmiyyətdə dindarlığın müxtəlif təzahürləri barədə söhbət açan şöbə müdiri müasir texnologiya və ünsiyyət vasitələrinin sürətli inkişafı nəticəsində son dövrlərdə aktuallaşan sosial media dindarlığına diqqət çəkib. Bildirib ki, bu gün müxtəlif və çoxsaylı sosial media istifadəçiləri tərəfindən dini düşüncələrin ifadə edilməsi bir çox hallarda bu istiqamətdə şəxsi baxışların ortaya qoyulmasına, beləliklə də dinin əsl mahiyyətindən uzaqlaşmasına səbəb olur. Çox zaman dinin əsl məğzi ilə sosial şəbəkələrdə nümayiş etdirilən dindarlıq arasındakı fərqlər insanlarda çaşqınlıq yaradır, bəzi hallarda dindarlığı formalaşmaqda olan şəxslərin yanlış istiqamətə yönəlmələrinə səbəb olur. Bu kimi problemdən çıxış yollarından da bəhs edən Y.Əliyeva xüsusilə qadınlar və böyüməkdə olan gənclər arasında dini maarifləndirmənin əhəmiyyətinə toxunub.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Masallı rayonunda fəaliyyət göstərən Qadın Resurs Mərkəzinin koordinatoru Nərgiz Muxtarova təmsil etdiyi qurumun fəaliyyət istiqamətlərindən bəhs edib, eyni zamanda cənub regionunda qadınların iqtisadi və sosial həyatda iştirakının stimullaşdırılması, onların əmək bazarına inteqrasiyası və məşğulluq imkanlarının reallaşdırılması istiqamətində görülən işlər barədə məlumat verib.

DQİDK əməkdaşı Aysel Abdullayeva "Xurafatla mübarizə və qadınlarımız" adlı təqdimatı ilə xurafatın yaratdığı, xüsusilə dini radikalizm, eləcə də ailə-məişət zəminində baş verən erkən nikah, boşanma və s. problemlərə, onların həlli yollarına yönəlik fikirlərini bölüşüb.



Bu qəbildən olan növbəti seminar 15-16 sentyabr tarixlərində fəal qadınlar, təhsil işçiləri, psixoloqlar, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Qəbələ rayonunda baş tutub. İştirakçılar əvvəlcə Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini yad ediblər.

Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova qadınların cəmiyyətin inkişaf prosesində tam iştirak etməsi üçün təhsilli və savadlı olmasının zəruriliyi, eyni zamanda qızların təhsildən yayınmasının acı nəticələri, İslamda qadının təhsilli olmasına verilən önəm barədə danışıb.

İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva müasir informasiya-kommunikasiya texnologiyalarının inkişafının faydası ilə yanaşı, sosial şəbəkə platformalarından düzgün şəkildə istifadə olunmadıqda ortaya çıxa biləcək təhlükələrə diqqət çəkib.

DQİDK əməkdaşı Aysel Abdullayeva isə seminar iştirakçılarını xurafat və onun törətdiyi fəsadlar barədə məlumatlandırıb.

İnteraktiv diskussiyaların aparıldığı seminarların sonunda iştirakçılara DQİDK tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi əsasında çəkilən "Ailə dəyərləri" adlı sənədli film nümayiş olunub, onları maraqlandıran suallar cavablandırılıb.

# ANIM GÜNÜNDƏ ŞƏHİDLƏRİMİZİN XATİRƏSİ YAD EDİLİB



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi 27 sentyabr Anım Günü ilə əlaqədar İkinci Şəhidlər xiyabanını ziyarət edib.

Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzülüb, Şəhidlərimizin unudulmaz xatirəsi hörmət və ehtiramla yad edilib.



## DQİDK-nın Mətbuat Xidmətinin açıqlaması

12 sentyabr 2022-ci il tarixindən etibarən Ermənistan tərəfinin beynəlxalq hüququn fundamental norma və prinsiplərini, habelə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarını və Brüssel danışıqlarında əldə edilmiş razılaşmaları kobudcasına pozaraq Azərbaycana qarşı növbəti hərbi təxribatı Ermənistanın sülh müqaviləsi bağlamaqdan yayınmağa çalışdığını və bu ölkədə revanşist meyillərin daha da gücləndiyini, rəsmi İrəvanın sülhə hazır olmadığını bir daha təsdiqləyir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində olduğu kimi, Azərbaycan Ordusu bu dəfə də canı-qanı bahasına bu xain hücumun qarşısını aldı, düşmənə layiqli cavab verərək ona növbəti dəfə sarsıdıcı zərbələr vurdu.

Son təxribatlar nəticəsində Vətənimizin bölünməzliyi uğrunda canından keçən şəhidlərimizin dəfn mərasimlərində dini şüarların səsləndirilməsinə gəlincə, müşahidələr onu göstərir ki, müəyyən kənar dairələrin təlimatlarını yerinə yetirdikləri şübhə doğurmayan bu təxribatçı qaragüruhçular qrup halında hərəkət edir, ictimai-asayişi pozmağa cəhd edir, nümayişkaranə şəkildə özlərini əsl "dindar" kimi göstərmək istəyirlər. Halbuki onların bu kimi daha çox şou təəssüratı yaradan davranışlarının nə hüquqi, nə də dini baxımdan əsası var. Digər tərəfdən, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin XVIII fəslində ("Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiramın göstərilməsi") şəhidlərimizin dəfn mərasiminin hansı formada keçirilməli olduğu açıq şəkildə göstərilib və bu qaydalarda hər hansı başqa hərəkətlərə yol verilməsi nəzərdə tutulmayıb. İslam dininə görə, dəfn mərasimləri mümkün qədər sükut içərisində keçirilməli, hətta zikrlər belə uca səslə söylənilməməlidir. Bununla bağlı İslam mənbələrində kifayət qədər faktlar vardır. Dəfn mərasimində bu cür qışqırıq salanların əməlləri, eyni zamanda xalqımızın formalaşmış adət-ənənələrinə də ziddir. Ancaq həm hüquqa, həm də dini ehkamlara məhəl qoymadan dəfn mərasimlərində dini şüarlar səsləndirən həmin adamlar məlum məsələdir ki, din adından istifadə edərək idarə olunduqları dairələrin tapşırıqlarını yerinə yetirməyə çalışırlar. Əslində bu cür din pərdəsi altında şəhidlərin dəfn mərasimindən istifadə edən qaragüruhçuların əməllərində başqa məqsəd gizlənir. Onlar hətta şəhid valideynləri və yaxınlarının çağırışlarına fikir verməyərək öz mənhus və qanunazidd əməllərini davam etdirirlər. Azərbaycan xalqı bu kimi təxribatçı qrupları yaxşı tanıyır və birmənalı olaraq qətiyyətlə rədd edir. Şəhidlərin dəfn mərasimlərindən özlərinin məkrli əməlləri üçün istifadə etmək istəyənlər heç bir şeyə nail ola bilməyəcəklər.

Daxili İşlər Nazirliyinin də bu cür neqativ hallarla bağlı açıqlamasında qeyd olunduğu kimi, şəhidlərimizin dəfni zamanı ərazidə ictimai asayişin qorunmasını həyata keçirən polis əməkdaşları hər hansı bir insidentin baş verməməsi üçün yersiz səs-küy qaldıran həmin adamları oradan uzaqlaşdırmır, ancaq mərasimlər başa çatdıqdan sonra qeyd olunan təxribatçıların ətrafında müvafiq araşdırmalar aparılaraq tədbirlər görülür.

Onu da qeyd etmək lazımdır ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə müvafiq dövlət qurumları ilə koordinasiyalı fəaliyyət göstərir. Belə ki, Dövlət Komitəsi yerli icra hakimiyyətləri ilə birlikdə şəhidlərimizin dəfn mərasimləri üçün din xadimlərinin iştirakını təmin etməklə yanaşı, bu istiqamətdə maarifləndirmə işini daima diqqət mərkəzində saxlayır və əməkdaşlarımız mərasimlərdə iştirak edir.

Unutmamalıyıq ki, şəhidlərimiz təkcə öz ailələri üçün deyil, hər birimiz üçün doğmadır, əzizdir. Çünki onlar canlarını Vətənimizin ərazi bütövlüyü, suverenliyi, təhlükəsizliyi, vətəndaşlarımızın xoşbəxtliyi, sahib olduğumuz milli-mənəvi dəyərlərimizi yaşatmaq uğrunda fəda etmişlər. Onlara layiq olduqları ehtiramı göstərmək isə hər birimizin borcudur!

Allahdan bütün şəhidlərimizə rəhmət diləyir, ruhları qarşısında baş əyirik.

## "VƏFTİZÇİ YƏHYANIN ŞƏHİDLİYİ" GÜNÜ QEYD OLUNUB

Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsində "Vəftizçi Yəhyanın şəhidliyi" günü və kilsənin əsasının qoyulmasının 135-ci ildönümü qeyd olunub. Bu münasibətlə kilsədə dini ayinlər icra olunub. Ayinlərə Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının katibi Arximandrit Aleksiy Nikonorov başçılıq edib.

Qeyd edək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin əməkdaşlarının da iştirak etdiyi mərasimlərə ruhanilərlə yanaşı, Gəncə şəhəri və ətraf bölgələrdə yaşayan pravoslavlar qatılıblar.



## QAZAXISTANDA DÜNYA VƏ ƏNƏNƏVİ DİN LİDERLƏRİNİN VII QURULTAYI KEÇİRİLİB



Sentyabrın 14-15-də Qazaxıstanın paytaxtı Nursultan şəhərində Dünya və ənənəvi din liderlərinin VII Qurultayı keçirilib. Qurultayın budəfəki mövzusu "Dünya və ənənəvi dini liderlərinin postpandemiya dövründə bəşəriyyətin mənəvi və sosial inkişafında rolu"na həsr olunub. Qurultayda bir sıra ölkələrin dövlət başçıları, dünya və ənənəvi dinlərin liderləri, beynəlxalq təşkilatların rəhbərləri, görkəmli siyasət, elm və ictimaiyyət xadimləri iştirak ediblər.

Qurultayın açılış mərasimində Qazaxıstan Respublikasının Prezidenti Kasım Jomart Tokayev və Roma Papası Fransisk salamlama nitqi ilə çıxış ediblər. Fransisk çıxışı zamanı iqlim dəyişikliyi probleminə toxunub.

"Qarşımızda ümumi evimizi qorumaq kimi daha bir problem dayanır. Ciddi iqlim dəyişikliyi şəraitində onu qorumalı, gələcək nəsillər üçün saxlamalı, onun çirklənməsinə və məhvinə imkan verməməliyik. Gəlin bu problemi birlikdə həll edək", - deyə Roma Papası bildirib.

Qurultayda müxtəlif ölkələrdən olan dini icmaların nüfuzlu nümayəndələrinin, o cümlədən Əl-Əzharın Baş imamı Şeyx Əhməd Ət-Tayyibin, Moskva Patriarxiyasının Xarici Kilsə əlaqələri şöbəsinin rəhbəri Volokolamsk Mitropoliti Antoniyin, İsrailin Baş Sefard ravvini İtsxak İosifin, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin çıxışları dinlənilib. Habelə, BMT-nin Baş katibi Antonio Quterreş Qurultay iştirakçılarına videomüraciət edib.

Qurultayın sonunda Bəyannamə qəbul edilib. Prezident Kasım Jomart Tokayev çıxışı zamanı bu sənədin əhəmiyyətini vurğulayıb. Bildirib ki, bu sənəd təfərrüatlı şəkildə bütün fundamental məsələləri əhatə edir, ona görə də beynəlxalq təşkilatlar və dünya siyasətçiləri tərəfindən bələdçi kimi istifadə oluna bilər. Prezident tədbir iştirakçılarını Bəyannamənin ideyalarını ardıcıl şəkildə təbliğ etməyə çağırıb, həmçinin Konqresin 10 illik inkişaf konsepsiyasının hazırlanmasını təklif edib.

## QLOBAL İSLAM QAÇQINLAR FONDU TƏSİS EDİLİB

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) və İslam İnkişaf Bankının (IdB) yoxsulluğun azaldılması üzrə tərəfdaşlığı çərçivəsində Qlobal İslam Qaçqınlar Fondunun (GIFR) təsis edilməsini alqışlayıb.

İƏT Baş katibinin humanitar, sosial və mədəni məsələlər üzrə köməkçisi, səfir Tariq Əli Baxit Fondun təsis edilməsinə dair Nyu-Yorkda imzalanmış sənədin müharibə və silahlı münaqişələr nəticəsində qaçqın və məcburi köçkün həyatı yaşayan insanlara maddi dəstək vermək məqsədi daşıdığını bildirib. O əlavə edib ki, bu nəcib missiyanın yerinə yetirilməsində İslam İnkişaf Bankı ilə yanaşı, mərkəzi qərargahı Ər-Riyadda yerləşən Kral Salman Humanitar Yardım Mərkəzi də iştirak edəcək.

İƏT Baş katibinin köməkçisi vurğulayıb ki, onun təmsil etdiyi təşkilat yeni fondun fəaliyyətinə hər cür dəstək verməyə hazırdır.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın ataşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onları tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abdullayev Sənan Şahin oğlu



Şəhid Abdullayev Sənan Şahin oğlu 1998-ci il noyabrın 1-də Bakıda anadan olub. Əslən Zəngilan rayonunun Ağbiz kəndindən olan Sənan 2005-ci ildə Məzahir Məmmədov adına Nərimanov rayonu 37 saylı tam orta məktəbdə təhsil almağa başlayıb. Güləş, boks və qaydasız döyüşlə məşğul olan Sənan 2016-ci ildə təhsilini başa vurub. O, 2017-ci ilin yanvarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Zəngilan rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılıb və orada peşəkar kəşfiyyatçı kimi yetişib. Hərbi xidmətdən qayıtdıqdan sonra Bakıdakı kitab mağazalarından birində satıcı kimi çalışan qəhrəmanımız sentyabrın 27-də başlayan Vətən Müharibəsinə könüllü qatılıb.

Şəhidimizin atası Şahin Abdullayev oğlunu vətənpərvər, qorxmaz və cəsur övlad kimi xatırlayır: "Sənan çox qeyrətli, mədəni, mərifətli oğul idi. İndiyə qədər bizi heç vaxt incitməyib. Hara gedirdisə, özündən qürurla söhbət etdirməyi bacarırdı. O, hələ körpə yaşlarından çox vətənpərvər ruhda olub. Vətənpərvərlik onun öz daxilindən gəlirdi. Polad Həşimov vəfat etdikdən sonra heç özünə gələ bilmədi, həmin gün gedib könüllü şəkildə Səfərbərlik Xidmətində qeydiyyatdan keçdi. Hər gün ora ilə əlaqə saxlayırdı, çünki böyük qardaşı qədər çox sevdiyi Polad Həşimovun, əmisinin qisasını almağa tələsirdi. Mənə də hər zaman deyirdi ki, "mən gedib Şuşada namaz qılacam". Zəngilanda bayraq dalğalandırmağı çox istəyirdi. Deyirdi ki, "ata, mən kəndimizdən sizə zəng edəcəyəm", halbuki oğlum heç vaxt Zəngilanı görməyib".

Sənan oktyabrın 5-də Füzuli rayonunun Seyidəhmədli kəndində şəhid olsa da, onun ailə üzvləri uzun müddət bu hadisədən məlumatsız olublar.

Şəhidin anası Gülbəniz Abdullayeva deyir ki, oğlunun nəşi tapılana qədər hamı onun sağ olduğuna inanıb. Sənanın nəşi isə noyabrın 1-də, elə doğulduğu gündə tapılıb və ailəsinə təqdim olunub: "26 gündən sonra ad günündə oğlumun nəşi tapıldı. Onun yaşadığına o qədər çox inanırdım ki, iki qurban kəsdim, amma çox təəssüf ki, oğlum şəhid oldu. O deyirdi ki, "ana, mən ölsəm belə mənimlə fəxr elə". Fəxr edirəm oğlumla".

Kəşfiyyatçı Sənan Abdullayev cəbhənin Füzuli istiqamətində gedən hərbi əməliyyatlarda döyüşçü yoldaşları ilə birlikdə bir gün ərzində üç düşmən postunu ələ keçirib. Həmin döyüşlərdə misilsiz qəhrəmanlıq göstərən 22 yaşlı Sənan düşmən snayperinin açdığı atəş nəticəsində qəhrəmancasına şəhid olub. Döyüşlərə yollanarkən yaşadığı məhəlləyə Azərbaycan bayrağı sancan Sənan Abdullayev II Fəxri Xiyabanda dəfn olunub.

Adını zəfər tariximizə yazan qəhrəmanlarımızdan biri əsgər Abdullayev Sənan Şahin oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

## Abdullayev Sərxan Elxan oğlu



Gizir Abdullayev Sərxan Elxan oğlu 1988-ci il noyabrın 2-də Qazax şəhərində hərbçi ailəsində anadan olub.

Sərxan orta təhsilini Qazax şəhərindəki Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseydə alıb. O, müddətli həqiqi hərbi xidmətini 2007-ci ilin yanvarından 2008-ci ilin iyulunadək Daxili Qoşunların Bakıdakı "N" saylı hərbi hissəsinin komendant bölüyündə keçib. Qısa fasilədən sonra - 2008-ci ilin noyabrından Daxili Qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. Hərbçi kimi atasının yolunu davam etdirmək arzusunda olan Sərxan xidmət etdiyi dövrdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təşkil olunan altı aylıq "Gizir hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirib. "Gizir" hərbi rütbəsində yenidən qoşunların Zaqataladakı "N" saylı hərbi hissəsində xidmətini davam etdirən S.Abdullayev 2013-cü ilin fevralından etibarən xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsini şərəflə yerinə yetirib. Bununla yanaşı, Sərxan əsl xüsusi təyinatlıya xas olan yüksək döyüş hazırlığı və əzmkarlığı ilə qazandığı "Zoğalı beret"i də hər zaman böyük qürur hissi ilə daşıyıb.

Sərxan Abdullayev 2014-cü ilin sentyabrından dekabrınadək qardaş Türkiyənin Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında "Gizir komando təməl kursu"nu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.

Nümunəvi yarımqrup komandiri kimi bilik və bacarığı sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağı bacarıb. Həmçinin xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və qüsursuz xidmətilə fərqlənən cəsur hərbi qulluqçumuz 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsi başlayan gün Sərxan öz bölükləri ilə Kəlbəcər istiqamətindən döyüşlərə başlayıb.

Daxili Qoşunların "N" saylı hərbi hissəsində "Qartal" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Zəfər" ordeni, "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmiş mayor Sahib İbrahimov (Vətən müharibəsi zamanı Cəbrayıl rayonu ərazisində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi yarımqrup komandirinin nümunəvi xidmətini bu gün də böyük qürur hissi ilə qeyd edir: "İndiki kimi yadımdadır, sentyabrın 27-dən 28-ə keçən gecə, döyüş öncəsi Camışdağ silsiləsindən Ömər yüksəkliyi istiqamətinə keçid vaxtı 39 dərəcə hərarətinin olduğundan bizim təkidimizə baxmayaraq, Sərxan qəti şəkildə şəxsi heyətlə birgə hərbi əməliyyatlarda iştirak edəcəyini bildirdi və hərəkətə başladı. Bu vaxt mən onu yanıma çağırıb: "Sənin qızdırman var, xəstəsən, hərarətin yüksəkdir. Burda bizi gözlə, hələlik irəliyə getmə" dedim. Sərxan narazı halda: "Cənab mayor, dəstəmiz döyüşə gedir. Siz mənim yerimdə olsaydınız getməzdiniz?" deyə sual verdi. Mən cavabımda "Əlbəttə, mən getməliyəm" dedim. O da qəti şəkildə "Mən də getməliyəm. Mən də komandirəm. Mənim də şəxsi heyətim var", - deyə fikrini bitirdi və birinci qrupla birgə hərəkətini davam etdirdi. Bu vaxt hər birimiz onun necə vətənpərvər döyüşçü olduğunun bir daha şahidi olduq...".

2020-ci il sentyabrın 28-də Kəlbəcər istiqamətində gedən döyüş Sərxanın sonuncu döyüşü oldu. Tabeliyində olan şəxsi heyətlə birgə döyüşə qatılan igid komandir ermənilərin xeyli sayda canlı qüvvəsini məhv edib. Lakin döyüşün gedişində düşmənin atdığı minaatan mərmisinin yaxınlıqda partlaması nəticəsində aldıqları çoxsaylı qəlpə yarasından gizir Sərxan Abdullayev və onunla birgə vuruşan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hakim Baxışov qəhrəmancasına şəhid olublar.

Gizir Sərxan Abdullayevin Orxan və Turan adlı iki oğlu var.

Şücaəti ilə fərqlənən qəhrəmanımız gizir Abdullayev Sərxan Elxan oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, şəhid gizirin atası Elxan Abdullayev Birinci Qarabağ müharibəsi veteranı, eyni zamanda ehtiyatda olan gizirdir. Sərxanın qardaşı Elman da hərbçidir. Kapitan hərbi rütbəsində olan Elman Abdullayev Azərbaycan Silahlı Qüvvələrinin zabiti kimi Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və şücaətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil hikmət**

# MƏNƏVİ DƏYƏRLƏR ELMİ-NƏZƏRİ MÜSTƏVİDƏ

*(İkinci yazı)*

*(əvvəli ötən sayımızda)*

### *Dəyərlərin xüsusiyyətləri*

Bu mövzuda əsas müzakirə predmetlərindən biri də dəyərlərin əhəmiyyət sırasıdır. Jozef Fitçer hesab edir ki, hər hansı dəyərin əhəmiyyət sıralamasında tutduğu yer həmin dəyərin cəmiyyətdə nə qədər yayılmasından asılıdır: "Ən yüksək sosial qiymətə malik olan davranış, eyni zamanda ən çox riayət olunan və üzərində ən çox sosial təzyiq olan dəyərdir". O, dəyərlərin xüsusiyyətlərini aşağıdakı təsnifatlara görə bölür:

a) Dəyərlər paylaşılır; cəmiyyət üzvlərinin böyük əksəriyyəti arasında dəyərlər üzərindən uzlaşma mövcuddur, hər hansı şəxsin mühakiməsindən asılı deyil.

b) Dəyərlər ciddi qəbul olunur; insanlar bu dəyərləri ortaq rifahın qorunması və sosial ehtiyacların təmin olunması ilə görür.



c) Dəyərlər özündə coşqu hissini ehtiva edir; insanlar ali dəyərlər uğrunda əzmkarlıq göstərir, döyüşür və hətta canlarından keçirlər.

d) Dəyərlər abstraktlaşır; insanlar arasında konsensusa nail olunması üçün anlayış olaraq dəyərlər abstraktlaşır.

e) Dəyərlər cəmiyyətin məhsuludur; hər hansı fərdə məxsus deyil və cəmiyyətin təzyiqi altındadır. Fərd dünyaya gələrkən artıq dəyərlər mövcud olur və o, cəmiyyətə qoşulma prosesində bu dəyərləri öyrənir, mənimsəyir, ona riayət edir, sonrakı nəsillərə ötürür. Yəni şəxs bu dəyərlərlə tərbiyə aldığına görə onun qərarları cəmiyyətdə hegemon olan dəyərlərlə üst-üstə düşür. Mövcud dəyərləri öyrənə bilməyənlər ağılsız hesab edilir, onu öyrənməyən və ona riayət etməyənlər isə cəzalandırılır.

f) Sosial dəyərlər ötürüləndir; onun nəsildən-nəslə ötürülməsi ailə, məktəb, dost-tanış, iş və kütləvi informasiya vasitələri yolu ilə baş verir.

g) Dəyərlər dil və simvollarla ötürülür; cəmiyyətdəki dil və simvollar özündə həmin cəmiyyətin dəyərlərini həm əks etdirir, həm də yaşadır. Məsələn, "şan-şöhrət", "şərəf" kimi sözlər, evlilik prosesində həyata keçirilən tədbirlər sosial dəyərlərdir.

h) Dəyərlər dəyişikliyə açıqdır; fəlsəfədə dəyərlərlə bağlı əsas müzakirə mövzularından biri də dəyərlərin relativliyi və ya mütləqiliyidir. Dəyərlərin dəyişmədiyi düşüncəsini müdafiə edənlərdən fərqli olaraq, relativlik tərəfdarı olanların fikrincə, əgər hər cəmiyyətin dəyər anlayışı müxtəlifdirsə, bir dəyər hər hansı cəmiyyətdə yaxşı, başqasında isə pis qəbul olunursa, deməli, dəyişməyən dəyər yoxdur. Dəyərlərin dəyişikliyə açıq olduğu düşüncəsini müdafiə edənlərdən biri amerikalı psixoloq Milton Rokiç yazır ki, insanlar zamana uyğun olaraq və ehtiyaclarını ödəmək üçün dəyərlərin əhəmiyyətlilik sıralamasında dəyişiklik edə bilərlər.

i) Dəyərlər anlam verən standartlar, inanclar və ya əxlaq qaydalarıdır; Amerikalı sosioloq Yozef Henri Fiçterin fikrincə, "dəyərlər mədəniyyətə və cəmiyyətə məna qazandıran, ona önəm verən tərəzidir.

j) Dəyərlər davranışların, insanların və hadisələrin seçilməsini və ya dəyişməsini yönləndirən standartlardır.

### *Dəyərlərin funksiyaları*

Dəyərlər mövcud olduqları cəmiyyətlərdə bəzi funksiyaları daşıyırlar. Onlardan bir qismi aşağıdakı kimidir:

a) Dəyərlər mühakimədə vasitə rolunu oynayır. O, insanların cəmiyyətdəki dəyərini ölçməkdə ən yaxşı meyar kimi qiymətləndirilir.

b) İnsanların diqqətini lazım olan, yararlı və önəmli hesab edilən mədəni elementlərə yönəldir.

c) Toplumda ideal düşüncə və davranış yollarını göstərir.

d) Sosial rolların sevilməsinə və icrasına rəhbərlik edir.

e) Cəmiyyətdə sabitliyi təmin etmək və qorumaq baxımından ictimai nəzarət və təzyiq vasitəsi rolunu oynayır.

f) Həmrəyliyin formalaşmasında iştirak edir.

g) İnsanları və hadisələrin təsnifləndirmək, davranış şəklini seçmək və onu qəbul etdirməkdə meyar kimi istifadə olunur.

Dəyərlərin funksiyalarına nəzər saldıqda onun əsas işinin cəmiyyətdə birliyə və həmrəyliyə nail olmaq olduğunu görürük. Buna görə də dəyərlər sisteminin gücü əsasən cəmiyyətdə qarşıdurma, yaxud hər hansı böhran yaşandıqda ortaya çıxır. Binanın tikintisində dəmir, qum, kirəc kimi materialları bir-birinə pərçimləyən sement nə qədər vacibdirsə, cəmiyyətdə qarşılıqlı anlayışın təmin olunmasında, həmrəyliyin qorunmasında da mənəvi dəyərlər bir o qədər vacibdir. Bu səbəbdən yaxşılıq, şəfqət, sədaqət, vəfa və dürüstlük kimi dəyərlər cəmiyyətdə sosial münasibətlərin təməl sütunlarıdır.

### *Qoruyucu çətir*

Yuxarıda qeyd etdiyimiz kimi, dəyərlər cəmiyyətdə fərdlər arasında birliyi və həmin cəmiyyətin gələcəyini təmin edən əsas amillərdəndir. Bu gün texnologiya sahəsində müşahidə olunan sürətli inkişaf dünyada iqtisadi, mədəni, sosioloji və s. baxımından bir çox dəyişikliklərə səbəb olub. Yaşadığımız dövr bilgi başda olmaqla, hər şeyə sürətlə nail olmağı hədəf seçib. İnsanlar ömürlərini sürətlə yaşamaqdadırlar və bu, artıq normal yaşayış kimi qəbul olunmaqdadır. Bu səbəbdən mənəvi cəhətdən problemlər gün keçdikcə daha da çoxalır. Cəmiyyətlər getdikcə daha vasvası və doyumsuz şəkil almağa başlayıblar. İnsana bu həyat tərzini yaşamağa vadar edən müasir dünyadır. Özəl olmaq, özünü özəl hiss etmək hisslərinə aludəçilik insanlar arasında gərgin mübarizə, hətta kəskin konfrontasiya ilə müşayiət olunur. Bu isə cəmiyyətin təməl sütunları olan dəyərlərə mənfi təsir göstərməklə yanaşı, onun funksiyalarını gün keçdikcə korşaldır. Nəticədə həm fərdlərin özləri, həm də onların birlikdə yaşamaq məcburiyyətində olduqları digər insanlar bundan əziyyət çəkirlər. Bu baxımdan, başqalarını anlamaq, tolerantlıq göstərmək, ictimai məsələlərdə həssaslıq kimi anlayışları özündə ehtiva edən dəyərlər, bir növ, çətir rolunu oynayır. Bu qoruyucu çətir:

- Fərdin məqsədlərini və gedəcəyi yolun istiqamətini təyin edir;
- Fərdi və ictimai fəaliyyətlərin əsaslarını formalaşdırır;
- Fərdin öz davranışlarını mühakimə etməsinə yardım edir;
- Fərdin başqalarından nə gözləməli olduğunu və ondan nə gözlənildiyini bilməsini təmin edir;
- Fərdin doğru və yanlışı, haqlı və haqsızı, xoşa gələn və xoşa gəlməyəni, əxlaqi olanı və əxlaqi olmayanı bir-birindən ayıra bilməsini təmin edir.

Milli-mənəvi özünüdərk məsələsi müasir dövrdə mürəkkəb problemlərdən biri kimi müzakirə predmeti olaraq qalır. Burada əsas məqam cəmiyyətdə bu dərkin formalaşdırılmasının vacibliyidir. Əlbəttə, hər bir quruluşda milli-mənəvi özünüdərk prosesi qlobal problemlərlə də üzləşir. Müasir dövrümüz üçün milli-mənəvi dəyərlərin qorunub saxlanması və milli-mənəvi özünüdərkin inkişaf problemləri təbii şəraitdə inkişaf edir, ancaq bəşəriyyətin bu sahədəki taleyinə, milli sərvətlərinə və gələcəyə, əslində, laqeyd münasibət bəsləyənlər də az deyil. Bu məsələ, şübhəsiz, dövr üçün xarakterik haldır. Köhnə dəyərlərə münasibət və inkişaf prosesində bu meyillərin dəyişməsi, çağdaş dövrün qlobal, ümumbəşəri problemlərinin meydana çıxması tamamilə təbiidir.

Türkiyə Cümhuriyyətinin qurucusu, Mustafa Kamal Atatürk yazırdı ki, milli-mənəvi özünüdərk bizim bütünlüyümüzdür. O, bütünlük dedikdə cəmiyyət həyatında milli-mənəvi dəyərlərin rolunu, əhəmiyyətini, həmin problemin dərkini və bu anlamın sosioloji-kulturoloji və multikulturalizm səviyyəsindəki dəyərini başa düşməyi tövsiyə edirdi. Atatürk bu ictimai fəaliyyəti və düşüncə mədəniyyətində milli-mənəvi özünüdərkin insan həyatında olmasına önəm verməşdi: "İllər keçdikcə insanlar milli-mənəvi problemlərin bəşər tarixinə mühüm təsir göstərmək imkanına malik olduğuna daha çox inanmağa başlayırlar".

**Saleh Arslan**

# DÜNYA BANKI UKRAYNAYA 11 MİLYARD DOLLAR HƏCMİNDƏ YARDIM EDİB

Dünya Bankı Ukraynaya təcili yardım qismində 11 milyard dollar ayırıb. Bu barədə Dünya Bankının prezidenti Devid Melpas Kaliforniya ştatındakı Stenford Universitetində çıxışı zamanı deyib.

"Dünya Bankı ikitərəfli layihələr və tərəfdaşları sayəsində Ukraynaya 13 milyard dollar təcili maliyyə yardımı səfərbər edib. Eyni zamanda, layihələrimiz və trast fondlarımız vasitəsilə artıq 11 milyard dollar paylanıb", - deyə Devid Melpas bildirib.

Avqust ayının əvvəlində Dünya Bankı nəzərdə tutulan 13 milyard dollar maliyyə yardımının 6,3 milyard dollardan çoxunun artıq Ukrayna hakimiyyətinə təhvil verildiyi barədə məlumat yaymışdı.

Xatırladaq ki, fevralın 24-də Rusiya Ukraynada genişmiqyaslı müharibəyə başlayıb. Avropa İttifaqı, Kanada, ABŞ, Böyük Britaniya və dünyanın bir çox digər ölkələri buna cavab olaraq Rusiyaya qarşı görünməmiş sanksiyalar tətbiq edir.

Ukraynaya isə hərbi və humanitar yardım durmadan artırılır.



# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2021

## BANCUL

Afrikanın Qərbində yerləşən Qambiya Respublikası materikin ən kiçik dövlətlərindən biridir. Ölkə Qərbdən Atlantik okeanı, digər üç tərəfdən isə Seneqal Respublikası ilə həmsərhəddir. Qambiya eyni adlı çayın aşağı hissəsinin hər iki sahilində yerləşir. Ərazisi 11.300 km², əhalisi isə təxminən 3 milyon nəfərdir. Paytaxtı Bancul, ən böyük şəhəri isə Serekundadır. Ölkə sakinləri mandinka, fula, volof, diola, serer, soninke və b. etnik qruplardan ibarətdir. Əhalinin təxminən 9%-ni təşkil edən soninke etnik qrupları V-VIII əsrlərdən bu günə qədər bu ərazilərdə yaşayırlar. Qambiya Afrikanın ən kiçik və ən yoxsul ölkələrindən biridir. Ölkə iqtisadiyyatının əsası kənd təsərrüfatı və turizmdir. Qambiyada, əsasən, yerfındığı ixrac edilir.

Qambiya çayının ətrafında münbit torpaqların olması qədim dövrlərdən etibarən burada məskunlaşmağa imkan yaratmışdır. Bu ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan saxsı qabların tarixi təxminən 5500 il bundan əvvələ aid edilir. Həmçinin Avropanın bəzi qədim xalqlarının Qərbi Afrika bölgəsi ilə davamlı əlaqədə olduğuna dair tarixi sübutlar da mövcuddur. Qambiyanın adına ilk dəfə Karfagenli Hannonun yeni ticarət əlaqələri qurmaq üçün təxminən e.ə 470-ci ildə Afrikanın qərb sahillərinə etdiyi səyahətlə bağlı yazılarda rast gəlinir.

XIV-XV əsrlərdə Mali imperiyasının tərkibində olan Qambiya 1455-ci ildə portuqalların ilk müstəmləkəçi qruplarına daxil edilmiş, 1765-ci ildə isə Britaniya İmperiyasının tərkibinə qatılmışdır. Qambiya xalqının öz müqəddəratını təyin etmək istəyi II Dünya müharibəsindən sonra tədricən artmış, Koloniyada siyasi partiyalar yaradılmışdır. 1965-ci ilin fevralın 18-də Qambiya siyasi müstəqillik əldə etsə də, Britaniya kraliçası II Yelizaveta faktiki olaraq dövlət başçısı idi. 1970-ci ilin aprel ayının 24-də ölkə keçirilən referendumla tam müstəqil olmuş, dövlətin rəsmi adı Qambiya Respublikası olmuşdur. 2015-ci ilin dekabrında Qambiya İslam Respublikası elan edilsə də, 29 yanvar 2017-ci ildə yenidən Qambiya Respublikası adlandırılmışdır.

Ölkə əhalisinin İslam dini ilə ilk tanışlığı Sahara səhrasını müntəzəm keçərək Seneqambiya və Qambiya hövzələrinə gedən tacir bərbərlər vasitəsilə olmuşdur. İslamın Şimali Afrikaya yayılmasından sonra bu proses daha da sürətlənmişdir. Nəticədə XI əsrdə Mavritaniya və Seneqal ərazisində yaşayan xalqlar İslamı qəbul etmişlər. Bu da özlüyündə Qambiyada İslamın təşəkkül tapmasına böyük təsir göstərmişdir. İslamın həmin ərazilərdə geniş yayılmasının səbəblərindən biri də XV əsrdə İslamı qəbul etmiş mandinka tayfalarının buraya köçüdür. Hazırda ölkə əhalisinin təxminən 90%-i İslam dininə, 9%-i Xristianlığa, 1%-i isə ənənəvi dinlərə etiqad edir. Ölkə dünyəvi dövlətdir, etiqad azadlığı konstitusiya ilə təsbit olunub, bütün dinlərin ardıcılları öz inancını rahat şəkildə yaşayırlar.



Ölkənin paytaxtı dördüncü ən böyük şəhər olan Banculdur. Şəhər Qambiya çayının Atlantik okeanına töküldüyü yerdə, ada üzərində yerləşir. Bancul qul ticarətinin qarşısını almaq, Fransanın nəzarətində olan Seneqaldan qovulmuş ingilis tacirlərini yerləşdirmək, həm də ticarət məntəqəsi kimi xidmət etmək üçün 1816-cı ildə ingilislər tərəfindən hərbi baza kimi salınmışdır. Şəhər ingilis Ticarət Şurasının sədri və Xarici İşlər naziri olmuş Henri Baturstun şərəfinə Baturst adlandırılmışdır. Uzun müddət Qambiya müstəmləkəsinin inzibati mərkəzi olan Baturst 1965-ci ildə ölkənin paytaxtı olmuş və 1973-cü ildə adı Bancul olaraq dəyişdirilmişdir. Hazırda Banculda 35000 insan yaşayır.

Bancul, eyni zamanda ölkənin ən mühüm sənaye və ticarət mərkəzi, ən işlək limanı və ən böyük təhsil mərkəzidir. Şəhərin əhəmiyyətini daha da artıran dəniz, çay, quru və hava yolları baxımından çox əlverişli olan Qambiya çayının mənsəbində yerləşməsidir. Şəhərin inkişafında digər amil getdikcə genişlənən turizmdir. Şəhərdə məscidlər, kilsələr və digər dinlərin müqəddəs məkanları, səhiyyə ocaqları, təhsil mərkəzləri, inzibati binalar fəaliyyət göstərir.

Əhalinin əksəriyyətinin müsəlman olması Banculun memarlığında da özünü göstərir. Abidələr daha çox müsəlman şərq üslubunda inşa edilmişdir. Tikililər içərisində məscidlər daha çox fərqlənir. Bunlara misal olaraq, Bancul Cümə, Əli ibn Əbu Talib, Əbu Bəkr, Ömər ibn Xəttab, Təqva, Bancul Cami kimi məscidləri qeyd etmək olar.

Bancul Cümə Məscidi (Kral Fəhad Məscidi) Banculdakı ən görkəmli və ən böyük məsciddir. Səkkizguşəli iki minarəli məscid Banculda İslam memarlığının müxtəlifliyini təmsil edir. Məscidin girişi açıq dairəvi tağla haşiyələnmiş, parlaq rənglərdən istifadə olunmuşdur. Məscid 1988-ci ildə tikilmişdir. Eyni vaxtda 6000-ə qədər insan məsciddə ibadət edə bilər.

Bancul 2021-ci ildə İslam mədəniyyəti paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

## NOTR-DAM KİLSƏSİNDƏKİ YANĞINA HƏSR OLUNMUŞ SERİAL ÇƏKİLİB



"Netflix" kinostudiyası 2019-cu ildə Parisdəki Notr-Dam kilsəsində baş verən yanğına həsr olunan çoxseriyalı film ekranlara çıxaracaq.

"Collider" əyləncə saytı xəbər verir ki, fransız dilində lentə alınan "Notr-Dam" adlı mini-serialda kilsədəki yanğının söndürülməsində iştirak edən iki yanğınsöndürənin həyatından bəhs olunur.

Çoxseriyalı bədii film bu ilin oktyabr ayında kinostudiyanın platformasına yerləşdiriləcək. Erve Hadmarın rejissoru olduğu filmdə baş rollarda fransız aktyorları Kerolayn Prust, Saymon Abkarian, Sandor Funtek və Korenten Fila çəkilib.

Xatırladaq ki, 2019-cu il aprelin 15-də şiddətli yanğına məruz qalmış Notr-Dam kilsəsi 2024-cü ildə qapılarını ziyarətçilərə yenidən açacaq. Kilsənin yenidən qurulması üçün milyard avro toplanıb. O vaxt Fransa Prezidenti Emmanuel Makron bildirmişdi ki, Notr-Dam beş il ərzində bərpa olunacaq, lakin bəzi ekspertlər buna on ildən çox vaxt lazım gələcəyini ehtimal edirdilər.

## MÜXTƏLİF İLLƏRƏ AİD 19 KƏBƏ ÖRTÜYÜ TÜRKİYƏDƏ NÜMAYİŞ EDİLƏCƏK

İpək üzərində qızılla işlənmiş və ritmik elementlərlə bəzənmiş 19 ədəd Kəbə örtüyü ilk dəfə Türkiyənin Kırıkkale vilayətində tikilməkdə olan "İslami Dəyərlər Kompleksi"ndə kompleks halda sərgilənəcək.

Bu əsərləri muzeyə gətirən və keçmişdə Səudiyyə Ərəbistanının Ciddə şəhərində Türkiyənin mətbuat attaşesi vəzifəsində çalışmış Bahattin Akyön üzlüklərlə bağlı bunları deyib: "Kəbənin açarı Peyğəmbərimizin zamanından bəri Əş-Şeybi nəsli tərəfindən mühafizə olunur. Bu dəyərli ailə Türkiyəyə olan maraqlarına və şəxsi dostluğuna görə müxtəlif illərə aid parçalar hədiyyə edib. Bu çox qiymətli parçaların hər kəs tərəfindən görülməsini istədik. 19 parça arasında üzərində İxlas surəsi həkk olunmuş "Səmədiyə" adlı çox qiymətli parçalar da var. Bundan əlavə, sərgidə Peyğəmbərin mübarək ayaq izinin dəqiq surəti və onun əşyalarından bəzi başqa nümunələr də var".



Qeyd edək ki, müqəddəs Kəbə tarixin ilk dövrlərindən bəri içəridən və xaricdən qiymətli parçalarla örtülüb. Keçmişdə yun və pambıq parçalarla örtülmüş Kəbə Osmanlı dövründən ipək parçalarla örtülməyə başlanıb. Bu gün Səudiyyə Ərəbistanının bu məqsədlə qurduğu "Məsnail Kəbə" fabrikində ipək parçaların misralarla bəzədilməsində qızıl və gümüşdən istifadə edilir. Parçanın üzəri əllə və qızıl sapla toxunur. Bu örtük hər il Qurban bayramı ərəfəsində dəyişdirilir. Müxtəlif tarixlərdə qırmızı, yaşıl, ağ kimi rənglərdən istifadə olunsa da, hazırda Kəbədə çöldə qara örtük, içəridə yaşıl örtük istifadə olunur.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini sentyabr ayı ərzində də davam etdirmişdir.*




***Cari ay ərzində bu qəbildən olan tədbirlər:***

**2 sentyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Uşaq-Gənclər İnkişaf Mərkəzində "Dini fanatizm, radikalizm, ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Tovuz Rayon İcra Hakimiyyəti (RİH), YAP rayon təşkilatı, rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliği və dini maarifləndirmənin effektivliyinin artırılmasında medianın rolu" mövzusunda;

**6 sentyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu GİI-nin birgə təşkilatçılığı ilə "Sülh Aylığı" çərçivəsində "Davamlı sülh inkişafın təməlidir" mövzusunda; DQİDK-nın və Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda;

**7 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RİH və Xaçmaz rayonu Qobuqırağı kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə Qobuqırağı kənd məscidində "İslamda zorakılıq anlayışı" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə "Sülh Aylığı: dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Heydər Əliyev Mərkəzində "Dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Göygöl şəhər Gənclər evində "Dinlərarası münasibətlər və tolerantlıq" movzusunda;



**8 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH və Gənclər Evi Sosial Xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Sülh aylığı: dini radikalizm və ekstremizmin əsas şərtləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusarda yerləşən hərbi hissədə "Özünəqəsd və xəsarət: İslam dini nə deyir?" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Gədəbəy RİH-in birgə təşkilatçılığı ilə "Narkomaniyanın səbəbləri və ona qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**9 sentyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Yevlax nümayəndəliyi və şəhər GİI-nin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Laçın RİH-in birgə təşkilatçılığı ilə Taxtakörpü qəsəbəsində "Sülh aylığı: dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliği və dini maarifləndirmənin effektiyinin artırılmasında medianın rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin Kürdəmir rayonunda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir" mövzusunda;

**12 sentyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər "İmamzadə ziyarətgah" dini kompleksində "Radikalizmlə mübarizədə din xadimlərinin və dini icmaların rolu" mövzusunda;

**13 sentyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Regional Mədəniyyət İdarəsində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;



**14 sentyabr** – DQİDK, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzi, Qusar RİH və QMİ-nin rayon üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Gənclər Mərkəzində "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda; DQDİK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon GİI və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda;

**15 sentyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş şəhəri "Hacı İsmayıl" məscidində "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda;

**17 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, İmişli RİH və Telişli kəndi "Fatimeyi-Zəhra" məscidinin birgə təşkilatçılığı ilə "Şəhidlik-vətənpərvərliyin ən ali məqamıdır" mövzusunda;

**20 sentyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar rayon GİI-nin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmin gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və rayon N.Gəncəvi adına Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH, Kürdəmir rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və QMİ-nin bölgə üzrə qazılığının birgə təşkilatçılığı ilə Şəki şəhər Mərkəzi Cümə məscidində "Dini radikalizm və ekstremizmin təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Ombudsmanın Şimal Regional Mərkəzi və Şabran RİH-in birgə təşkilatçılığı ilə Şabran şəhər Heydər Əliyev Mərkəzində "Birgəyaşayış və tolerantlığın Azərbaycan nümunəsi" mövzusunda;

**21 sentyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Ombudsmanın Gəncə Regional Mərkəzi, Gəncə şəhər GİI və şəhər Gənclər Evinin birgə təşkilatçılığı ilə Beynəlxalq Sülh Gününə həsr olunmuş tədbir; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonunda "Qloballaşma dövründə din xadimlərinin və dini icma sədrlərinin öhdəlikləri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Peşə Məktəbinin birgə təşkilatçılığı ilə "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda;



**22 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər E.Babayev adına 4 saylı tam orta məktəbində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Lənkəranda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol-milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin Kürdəmir rayonunda yerləşən N saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda;

**23 sentyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və Şilyan kənd "Xeybər" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərin təbliğində dini icmaların rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Biləsuvar RİH-in birgə təşkilatçılığı ilə "Tolerantlıq və multikulturalizm dövlət siyasətinin tərkib hissəsi kimi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər, dini radikalizm və erkən nikah" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon GİI və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə 27 Sentyabr - Anım Günü ilə əlaqədar;



**26 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon GİI və rayon peşə liseyinin birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Akademik Zərifə Əliyeva adına Texniki təmayüllü liseydə 27 sentyabr Anım Günü münasibəti ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Naftalan şəhəri və Goranboy rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Goranboy rayonunda 27 sentyabr Anım Günü ilə əlaqədar "Vətən uğrunda şəhadət ən ali məqamdır" mövzusunda;

**27 sentyabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron rayonunda yerləşən N saylı hərbi hissənin birgə təşkilatçılığı ilə; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayonu Gənclər Evi sosial xidmət müəssisəsi, rayon GİI, Rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və

davamı səh. 13

# QISA-QISA

əvvəli səh. 12

Karyera Mərkəzinin Saatlı nümayəndəliyinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Bələdiyyəsinin birgə təşkilatçılığı ilə Anım Günü ilə bağlı;

**28 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzinin birgə təşkilatçılığı ilə Quba rayonunun Alpan kəndində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in birgə təşkilatçılığı ilə M.Müşviq adına Gərəkli kənd tam orta məktəbində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Tibb Kollecində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən hərbi hissələrin şəxsi heyəti, müəllimlər, mədəniyyət işçiləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə natiqlər milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışıblar. Qeyd edilib ki, milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

**27 sentyabr** – Anım Günü ilə əlaqədar keçirilən tədbirlərdə şəhidlərimizin ruhlarına dualar oxunub, vətən, torpaq və şəhidlik haqqında çıxışlar edilib, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi Zəfərdə



əsgərlərimizin misilsiz qəhrəmanlıqlarından bəhs olunub. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərimizə göstərilən qayğının hər birimiz üçün örnək və nümunə olduğu qeyd edilib.

Çıxışlarda dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin rolu mövzusuna da toxunulub. Gənclərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyi vurğulanaraq, xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərinin gənclər arasında fəal təbliğ edilməsinin vacibliyi diqqətə çatdırılıb. Həmçinin bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

Çıxışlar zamanı ölkəmizdə müxtəlif dinlərin, məzhəblərin və xalqların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqları qeyd edilib. Natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildiriblər. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, İslam dinində insan həyatına verilən dəyərdən, uşaqların doğulanadək cins seçiminin qarşısının alınması hallarına qarşı mübarizədə profilaktik və qabaqlayıcı tədbirlərin vacibliyindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlərdə qarşılıqlı diskussiyalar aparılıb, iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

**27 Sentyabr** - Anım Günü ilə əlaqədar bölgələrdə silsilə tədbirlər keçirilib

Gəncə bölgəsində fəaliyyət göstərən məscidlərdə 27 sentyabr - Anım Günü ilə bağlı mərasimlər keçirilib. Gəncə şəhərində fəaliyyət göstərən müxtəlif dini konfessiyaların nümayəndələri də anım mərasimlərində iştirak ediblər.

Öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin ruhuna dualar oxunub.

***

Qax rayonunda yerləşən kilsələrdə də Qax rayonu Əlibəyli kəndi "Müqəddəs Nino" kilsəsi gürcü pravoslav xristian dini icması və Qax rayonu Qaxingiloy kəndi "Müqəddəs Giorgi" kilsəsi gürcü pravoslav xristian dini icmasının üzvləri 27 Sentyabr - Anım Günü münasibətilə tədbirlər keçiriblər.

Kilsələrdə Vətən müharibəsində canlarından keçmiş şəhidlərin ruhlarına dualar oxunub.

Çıxışlarda şəhid adının müqəddəsliyi, onların xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağı qeyd olunub. Zəfərin qazanılmasında hərbçilərimizin göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışılıb.

# POLŞANIN DİN XADİMLƏRİ AZƏRBAYCANDA SƏFƏRDƏ OLUBLAR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Polşa Respublikasındakı Səfirliyi və "Həyat sözü" Xristian dini icmasının birgə təşkilatçılığı ilə Varşava Böyük Keşişlər Seminariyasının rektoru Voyçex Bartkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycandakı dini həmrəylik, tolerantlıq mühiti, xristian, eləcə də alban dini məbədləri, polyak mirası və icması ilə tanışlıq məqsədilə 7-14 sentyabr 2022-ci il tarixlərində ölkəmizdə səfərdə olublar. Nümayəndə heyətinin tərkibinə Varşava Oçota rayonunun pastoru Przemislav Çvek, Varşava Baş Yeparxiyasının Uşaq və Gənclərin Müdafiəsi üzrə Yepiskop Nümayəndəsinin müavini Mixal Turkovski və başqaları daxildir.

Nümayəndə heyəti sentyabrın 7-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində olub. Qonaqlar AMEA Rəyasət Heyətinin inzibati binası ilə tanış olduqdan sonra Azərbaycan-Polşa münasibətlərini, elmi əlaqələrini araşdıran alimlərlə görüşüblər. Görüşdə AMEA-nın prezidenti vəzifəsini icra edən, akademik Arif Həşimov, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, eləcə də Polşa-Azərbaycan ədəbi əlaqələrini tədqiq edən azərbaycanlı alimlər iştirak ediblər.

Daha sonra nümayəndə heyəti Bakıda yerləşən "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" katolik kilsəsini ziyarət edib, ibadət zalı və inzibati bina ilə tanış olublar. Qonaqlara ölkəmizdə katolikliyin tarixi və fəaliyyəti haqqında geniş məlumat verilib, dövlətin icmaya göstərdiyi qayğıdan bəhs edilib. Ümummilli Lider Heydər Əliyevin Katolik Xristian dini icmasına yüksək diqqət və qayğı ilə yanaşmasından, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışılıb. Həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Katolik icmasına xüsusi diqqət yetirməsi vurğulanıb.

Sentyabrın 8-də Bakıdakı Müqəddəs Qriqori (erməni) kilsəsində olan qonaqlar məbədin tarixi, onun qorunub saxlanılması istiqamətində dövlətin həyata keçirdiyi tədbirlər barədə məlumatlandırılıblar. Bildirilib ki, Azərbaycanda tolerantlıq ənənəsinin əsası hələ qədim dövrlərdən qoyulub. Azərbaycan tarixin ilkin dönəmlərindən başlayaraq hər zaman başqa xalqlara və dinlərə saygı ilə yanaşıb. Bu münasibət müasir zamanda da nəinki dəyişməyib, əksinə, daha da dərinləşib. Diqqətə çatdırılıb ki, kilsədə erməni dilində minlərlə kitab qorunub saxlanılır. Müqəddəs Qriqori kilsəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi kimi "Azərbaycandakı tarixi abidələrin milli qeydiyyatı" siyahısına daxil edilib.

Polşalı qonaqlar həmçinin Şamaxı, Qəbələ və Şəki rayonlarına səfər ediblər, bölgələrdəki dini ibadətgahlarla tanış olublar.

Səfər çərçivəsində nümayəndə heyəti respublikamızın ərazisindəki ən qədim məscid olan Şamaxı şəhər "Cümə" məscidini ziyarət edib. Ziyarət zamanı Şamaxı Rayon İcra Hakimiyyəti (RİH) başçısı Tahir Məmmədov qonaqları salamlayaraq rayonun tolerantlığı, tarixi, mədəniyyəti, o cümlədən dini və tarixi abidələri barədə ətraflı məlumat verib. Daha sonra QMİ-nin bölgə qazisi, şəhər "Cümə" məscidinin imamı Mərhəmət Mustafayev məscidin fəaliyyəti və tarixi barədə qonaqları məlumatlandırıb. Ardınca nümayəndə heyəti Şaxəndan türbəsi ilə tanış olub.



Voyçex Bartkoviç nümayəndə heyəti adından RİH başçısı Tahir Məmmədova təşəkkür edib və qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

Daha sonra qonaqlar Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili ilə görüşüblər. Görüş zamanı bildirilib ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında Ermənistan tərəfindən vandalizm aktı törədilib, Azərbaycanın mədəni-dini irsi yerlə-yeksan edilib və ya dəyişdirilib - məscidlər, ziyarətgahlar, kilsələr, qəbiristanlıqlar dağıdılıb, heyvan saxlanılan tövlə halına salınıb, həmçinin tarixi Qafqaz Albaniyasına aid abidələrin daxili, xarici görkəmləri dəyişdirilərək qriqoryanlaşdırılıb.

Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban və Müqəddəs Yelisey adına Cotari kilsələri, eləcə Şəkiyə səfərləri zamanı Kiş kəndində yerləşən qədim alban məbədi ilə tanışlıq qonaqlarda zəngin təəssüratlar yaradıb.

Gəncə və Göygölə şəhərlərinə səfər çərçivəsində Varşava Böyük Kahinlər Seminariyasının nümayəndələri Aleksandr Nevski adına Rus Pravoslav kilsəsinə baş çəkib, vaxtı ilə xristian dini məbədi kimi fəaliyyət göstərmiş Gəncə Dövlət Kukla Teatrının binası, Müqəddəs İohann lüteran kilsəsi və şəhərlərin bir sıra digər mədəni və tarixi əhəmiyyətli binaları ilə tanış olublar.

# ANTİK KLAROS XRİSTİANLIĞIN QƏBULUNDAN SONRA DA KƏHANƏT MƏRKƏZİ KİMİ XİDMƏT GÖSTƏRİB



"Arkeo News"-un məlumatına görə, İzmirin cənub-qərb sahillərində yerləşən qədim yunan məbədi Klarosda eramızın V və VII əsrlərinə aid oyun lövhələri və haçalanmış xaç motivləri aşkar edilmişdir.

Yeni tapıntılar Xristianlığın yayılmasından sonra tərk edildiyi düşünülən Klarosun əslində uzun illər fəaliyyət göstərdiyini ortaya qoyub. Klarosun eramızdan əvvəl VII-VI əsrin əvvəllərində Kolofonun himayədar tanrısı Apollonun adına tikildiyi güman edilir. Bura bir vaxtlar İoniyanın mühüm bütpərəst ziyarətgahlarından biri idi.

Bu məkana dair ən erkən ədəbi istinadlara Homerin eramızdan əvvəl VI və VII əsrlərə aid ilahilərində rast gəlinir. Lakin tapılan proto-həndəsi saxsı qablar bu ərazinin hələ eramızdan əvvəl IX əsrdə məskunlaşdığını göstərir.

Həm ellinistik, həm də Roma dövründə əhəmiyyət daşıyan Apollon məbədinin yanındakı müqəddəs mağara burada ilkin dövrlərdə Kibele kultunun mövcud olduğunu göstərir. Klarosda hər beş ildən bir Apollonun şərəfinə Klaria oyunları keçirilirdi.

Klarosda qazıntılar üzrə məsləhətçi kimi çalışan Ege Universitetinin nümayəndəsi Onur Zünalın sözlərinə görə, burada aparılan son işlər göstərib ki, 380-ci ildə Xristianlıq rəsmi din elan edildikdən sonra da ziyarətgahdan istifadə edilib: "Buranı hələ də ziyarət edənlər var. Klarosun enerjisinə inanan çox adam var. Apollona inanan insanların müəyyən vaxtlarda bura gələrək müəyyən ritualları yerinə yetirdiyinin də şahidi olmuşuq. Buna görə də əslində şəhərin eramızın VII əsrində tərk edildiyini söyləmək belə düzgün olmazdı".

# AVROPANIN BƏZİ KİLSƏLƏRİNDƏ İSTİLİK SİSTEMLƏRİ SÖNDÜRÜLƏCƏK



"zeit.de" saytına istinadən, Şimal Torpaqları Yevangelist Kilsəsinin (Almaniya) Lübek-Travemündedə keçirilən sinodunda digər məsələlərlə yanaşı, prixod mənsublarına elektrik enerjisi xərcləri üçün maddi yardım göstərilməsinin mümkünlüyü də müzakirə olunub. Təklif edilib ki, kilsə vergisi kimi toplanan vəsaitin bir hissəsi elektrik haqqını ödəyə bilməyən prixod mənsublarına köçürülsün.

Hessen və Reynland-Pfaltsda yerləşən bəzi kilsələrdə isə din xadimləri ibadətə gələnlərə ədyal verməyi təklif ediblər. Çünki elektrik enerjisinin qiymətinin kəskin artması səbəbindən kilsələr minimum həddə qızdırılacaq, buna görə də keşişlər isti havalarda ibadət mərasimlərinin açıq havada keçirilməsini, soyuq havalarda isə kilsədəkilərə ədyal verilməsini təklif ediblər. Həmçinin ibadətlərin onlayn formatda keçirilməsi təklif olunur.

İsveç də elektrik enerjisinin qiymətinin kəskin artması səbəbindən kilsələri bağlamağa başlayıb - qışa qədər kilsələr və ibadət evləri ya tamamilə bağlanacaq, ya da istilik sistemi söndürüləcək. Bunu "Dagens Nyheter"ə müsahibəsində İsveç Lüteran Kilsəsinin mədəni irs şöbəsinin rəhbəri Markus Dalberq deyib.

Dalberq qeyd edib ki, ölkənin bir çox yerində, xüsusilə enerji qiymətlərinin ən yüksək olduğu cənubda bu cür tədbirlər gözlənilir. "Bir çox ibadətgahlar kənd yerlərində yerləşir. Çoxlu binalara və aşağı üzvlük haqqı bazasına malik olan yığıncaqlarda kilsə binalarına qulluq etmək məsuliyyəti böyük bir yükə çevrilir", - deyə o etiraf edib.

# MƏKKƏDƏ KRALİÇA II YELİZAVETANIN RUHU ÜÇÜN ÜMRƏ EDƏN ŞƏXS HƏBS OLUNUB



Səudiyyə Ərəbistanında kraliça II Yelizavetanın ruhu üçün Məkkədə ümrə etmiş dindar şəxs həbs edilib. O, Məscidül-həramın qarşısında "Kraliça II Yelizavetanın ruhu üçün ümrə, Allah onu cənnətdə salehlər arasında qəbul etsin" plakatı açıb. Bu barədə "The Guardian" xəbər verib.

Yəmən vətəndaşı olan həmin şəxs Məkkədə Məscidül-həramın ziyarəti ilə bağlı videosunu sosial şəbəkədə yerləşdirib. Video Səudiyyə Ərəbistanının sosial şəbəkələrində dərhal yayılıb və bir çox "Twitter" istifadəçisi qəzəblə günahkarın həbs olunmasını tələb edib.

Səudiyyə Ərəbistanı zəvvarlara Məkkədə qaldıqları müddətdə diqqət cəlb edəcək hər hansısa hərəkəti etməyi, o cümlədən plakat açmağı, nəyəsə çağırmağı, hansısa bəyanatlar və şüarlar səsləndirməyi qadağan edir. Ölən müsəlmanların xatirəsinə ümrə etməyə icazə verilsə də, bu qayda qeyri-müsəlmanlara şamil edilmir. Kraliça isə nəinki müsəlman deyildi, o həm də Anqlikan Kilsəsinin başçısı idi.

Yerli KİV-in yaydığı rəsmi bəyanatda deyilir: "Məscid mühafizəsi ümrə qaydalarını pozaraq, Məscidül-həramın içərisində pankart tutaraq video görüntülərdə görünən Yəmən vətəndaşını saxlayıb. O, həbsdədir və Dövlət Prokurorluğu tərəfindən irəli sürülən ittihamlar da daxil olmaqla, barəsində qanuni tədbirlər görülüb".

# İSRAİLİN QƏDİM ƏŞYALAR İDARƏSİ ƏHDİ-ƏTİQ DÖVRÜNƏ AİD NADİR SƏNƏDİ NƏŞR EDİB



"Christian headlines"in verdiyi xəbərə görə, İsrailin Qədim Əşyalar İdarəsi (Israel Antiquities Authority, IAA) Əhdi-Ətiq dövrünə (e.ə. VII-VI əsrlər) aid nadir sənədi nəşr edib. Birinci Məbəd dövrünə aid bu papirus yəhudi səhrasının quru iqlimində möcüzəvi şəkildə qorunub saxlanılıb və ABŞ-da şəxsi kolleksiyada tapılıb.

Bibliyadakı İsrail dövrünə aid 2700 illik bu sənəddə Əhdi-Ətiq padşahlarının hakimiyyəti dövründə çox yayılmış "İşmael" (İsmayıl) adına rast gəlinib. Press-relizdə bildirilir ki, sənəddə dörd sətir, o cümlədən "İsmailə göndər" ifadəsi qorunub saxlanılıb.

Papirusun eramızdan əvvəl VII əsrin sonu-VI əsrin əvvəllərinə, yəni Süleyman padşahın dövründə ucaldılmış və e.ə. 586-cı ildə babillilər tərəfindən dağıdılan Birinci Məbədin dövrünə aid olduğu güman edilir.

Ekspertlər sənəddəki "İsmayıl" adının Birinci Məbəd dövründə yaşamış naməlum bir İsmayıla aid olduğu fikrindədirlər. "Bu ad İncildə ilk dəfə İbrahim və Həcərin oğlunun adı kimi keçir və sonradan bir neçə Bibliya personajı bu adı daşıyır. Paleoqrafik tapıntılarda, o cümlədən gil möhürlər üzərində məmurların adı kimi də bu ada rast gəlinir. Həmin möhürlərdən kral sənədlərini imzalamaq üçün istifadə olunurdu. Bu sənəd də papirusun yəqin ki, ya İsmayıla, ya da ondan göndərildiyini ortaya qoyur".

İsrail Qədim Əşyalar İdarəsinin Yəhudi Səhra Kitabələri Departamentinin direktoru Co Uziyel papirusun nadir tapıntı olduğunu deyir. "Kolleksiyamızda İkinci Məbəd dövrünə aid minlərlə fraqmentimiz olsa da, Birinci Məbəd dövrünə aid yalnız üç sənəd, o cümlədən ötən gün möcüzəvi şəkildə tapılan bu sənəd var". Onun sözlərinə görə, hər bir belə sənəd Birinci Məbəd dövründə əhalinin savadlılıq səviyyəsinə və hökumət mexanizmlərinə yeni işıq salır.

# 2045-Cİ İLƏ QƏDƏR ABŞ-DA XRİSTİANLAR AZLIQ TƏŞKİL EDƏCƏK

Bu barədə "Pew" Araşdırma Mərkəzi yazıb.

"christianpost.com"un yazdığına görə, 2045-ci ilə qədər ABŞ-ın xristian əhalisi üstünlük təşkil etməyə bilər. "Pew" Araşdırma Mərkəzi bildirib ki, belə olan halda onların sayı özünü heç bir dinlə əlaqələndirməyən və özünü ateist hesab edən ABŞ vətəndaşlarından daha az olacaqdır.

Qlobal Pew-Templeton "Dini Gələcək" layihəsi çərçivəsində ABŞ əhalisinin dini tərkibinin necə dəyişəcəyinə dair bir neçə ssenari hazırlayan mütəxəssislər bu nəticəyə gəliblər.

"Pew" əməkdaşları ölkənin dini mənzərəsinin növbəti 50 ildə necə dəyişə biləcəyini göstərən dörd ehtimal ssenarisi müəyyən ediblər. Dörd ssenarinin hamısında "ABŞ əhalisi arasında xristianların say nisbətinin azalmağa doğru gedəcəyi, ateistlərin sayının isə artacağı göstərilib. Mütəxəssislər 2070-ci ilə qədər ateistlərin Amerikada əksəriyyətin kimliyinə deyil, sadəcə ən böyük dini kimliyə çevriləcəyi modeli daha real hesab ediblər. Bu, o halda baş verə bilər ki, 30 yaşa qədər dindən uzaqlaşma nisbəti sabitləşəcək və 2050-ci ilə qədər xristianlar ABŞ əhalisinin 47%-ni, ateistlər isə 42%-ni təşkil edəcəklər.

"Pew" Araşdırma Mərkəzinin məlumatına görə, yaşlı amerikalılar Xristianlığa daha sadiqdirlər, gənc amerikalılar arasında isə dindən tamamilə imtina tendensiyası müşahidə edilir. 2020-ci ilin sorğusuna əsasən, uşaqlar da daxil olmaqla amerikalıların təxminən 64%-i özlərini xristian hesab edir. ABŞ vətəndaşlarının 30%-i özlərini ateist sayır, digər dinlərin nümayəndələri, o cümlədən yəhudilər, müsəlmanlar, hindular və buddistlər təxminən əhalinin 6%-ni təşkil edir.

## DÜNYANIN ƏN ÇOX TƏRCÜMƏ OLUNAN KİTABI



Dünyada başqa dillərə ən çox tərcümə olunan kitab Bibliyadır. Bibliyanın tərcümələri dillərin formalaşmasına və mədəniyyətə fəal təsir göstərib. Bu işdə Martin Lüterin tərcüməsi xüsusilə təsirli olub. Onun Əhdi-Cədid tərcüməsi 500 il əvvəl nəşr edilib. Martin Lüter yeni terminlər fikirləşib və vahid, yazılı alman dilinin inkişafına mühüm töhfələr verib. Ədəbiyyat üzrə Nobel mükafatı laureatı, yazıçı Tomas Mann 1945-ci ildə yazırdı ki, Lüter "alman dilini ilk növbədə İncilin tərcüməsi sayəsində formalaşdırıb".

1522-ci ilin sentyabrında Leypsiq kitab sərgisində Əhdi-Cədidin onun etdiyi inqilabi tərcüməsi göründü. Cəmi on bir həftə ərzində Eyzenaxın yaxınlığındakı Vartburqda olarkən Lüter dörd Yevangeliya, Həvarilərin İşləri, 21 məktub və Yəhyanın Vəhyini alman dilinə tərcümə etmişdi. Kitabın üç min nüsxəsi tez bir zamanda satıldı. Artıq 1522-ci ilin dekabrında təkmilləşdirilmiş nəşr çap olundu. Lüter tədricən Əhdi-Ətiq kitablarının tərcümələrini də nəşr etdirdi. 1534-cü ildə Müqəddəs Kitab bütünlüklə alman dilində nəşr olundu.

Lüterin tərcüməsi İncilin alman dilinə nə ilk tərcüməsi, nə də alman dilində ilk çap olunmuş İncil idi. Bu nəşri fərqləndirən və uğurlu edən onun üstünlüyü danışıq dilinə və güclü təsvirlərə verməsində idi. Lüter hərfi tərcümədənsə semantikaya (mənaya) üstünlük verirdi. Daha sərbəst tərcüməsi və dilin ritmi sayəsində Lüterin variantı xüsusilə cəlbedici idi və cəmiyyətin bütün təbəqələrinin oxuması üçün çox uyğun idi. Şübhəsiz ki, onun Allah kəlamını təfsir etməsi, həm də qismən dəyişdirməsi tənqidlərə səbəb olmuşdu.

Bibliyanın alman dilinə tərcümələrinin tarixi VIII əsrdən başlayır: rahiblər Müqəddəs Kitabın mesajını german xalqlarının dilində və dialektlərində çatdırmaq istəyirdilər. Həmin dövrdə xalq dilinin dini məqsədlər üçün istifadə olunub-oluna bilməyəcəyi ilə bağlı mübahisələr var idi. 794-cü ildə Frankfurt Sinodu qərara gəldi ki, Allaha təkcə Müqəddəs Yazıların dilində - ibrani, yunan və latın dillərində ibadət etmək olmaz. Ən erkən tərcümə mətnlərində latın terminləri sətirlər arasında almanca izah edilirdi. Əsas dualar və Bibliyanın ayrı-ayrı kitabları orta əsrlərə qədər tərcümə edilmişdir.

Alman İncil Cəmiyyətinin məlumatına görə, 1533-cü ildə hər 70 almandan biri və ya hər on alman ailəsindən biri Lüterin Əhdi-Cədidinə sahib idi. Lüterin Bibliya tərcümələri təkcə dialektlərdən kənar ümumi dil yaratmağa kömək etmədi, həm də savadlılığın artmasına səbəb oldu - axı bu, hər bir xristianın Allah kəlamını özünün oxuması və anlaması tələbi ilə bağlı idi. Katolik ənənəsi isə uzun müddət buna müqavimət göstərdi. Çünki hesab olunurdu ki, adi dindarların İncili anlaması üçün keşişlərin vasitəçiliyi və izahına ehtiyac var.

## ICESCO İSLAM DÜNYASI İRSİ GÜNÜ MÜNASİBƏTİLƏ BƏYANAT YAYIB



İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) hər il sentyabrın 25-də İslam Dünyası İrs Gününü qeyd edir.

Bu münasibətlə yaydığı bəyanatda ICESCO-nun İslam dünyasında mədəni irsin qorunması və onun elementlərinin sənədləşdirilməsi üzrə səylərinin bir hissəsi olaraq, üzv dövlətlərin çoxsaylı tarixi yerlərini və mədəni elementlərini İslam Dünyası Maddi və Qeyri-Maddi İrs Siyahılarına daxil etdiyi diqqətə çatdırılıb. Belə ki, irs sahəsində çalışan peşəkar heyətin əlyazmalardan ibarət faylların hazırlanmasında bacarıqlarını inkişaf etdirmək üçün bir neçə təlim sessiyası keçirilib. Təşkilat, həmçinin mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi ilə mübarizənin zəruriliyi barədə məlumatlılığı artırmaq üçün bir neçə beynəlxalq forum və simpoziumlar təşkil edib.

ICESCO qeyd edib ki, müasir texnoloji nailiyyətlərlə ayaqlaşan təşkilat üzv dövlətlərin irs sənədlərində süni intellektin tətbiqi təcrübəsinin genişləndirilməsi və irs nümunələrinə dair bir sıra təlimatların tamamlanması üzərində işləyir. Bununla yanaşı, İslam ölkələrində mədəni irsin qiymətləndirilməsi, onun qeyri-qanuni alverinə qarşı mübarizə yolları daha da təkmilləşdirilir. Bu sahədə mütəxəssis və ekspertlər üçün beyin mərkəzinə çevrilmiş ICESCO-nun İslam Dünyası İrs Mərkəzi üzv dövlətlərin irs sahəsində müxtəlif ehtiyaclarına cavab vermək, o cümlədən hüquqi sistemləri nəzərdən keçirmək üçün lazımi dəstəyi təmin edən inteqrasiya olunmuş proqram həyata keçirir. Bununla yanaşı, peşəkarlara nəzarət və onların hazırlıq səviyyəsinin yüksəldilməsi, ICESCO-nun ixtisaslaşmış komitələri tərəfindən təhlükə altında olan irs abidələrinə baxış və kəşfiyyat səfərlərinin həyata keçirilməsi, müvafiq texniki hesabatların hazırlanması, habelə İslam dünyasında mədəni irsin müxtəlif komponentlərinin sənədləşdirilməsi, bərpası və mühafizəsi də diqqət mərkəzində olan məsələlərdir.

## ABŞ AVROPA İTTİFAQI ÖLKƏLƏRİNİ UKRAYNAYA MALİYYƏ YARDIMINI SÜRƏTLƏNDİRMƏYƏ ÇAĞIRIB



Ağ Ev Avropanın Kiyevə göstərdiyi iqtisadi yardımının tempindən narazıdır və buna görə də Brüsseli vəsaitlərin ayrılmasını sürətləndirməyə və dəstəyin həcmini artırmağa sövq etməyə çalışır.

"Financial Times" qəzeti bu barədə ABŞ administrasiyasında və Avropa İttifaqında olan mənbələrinə istinadla məlumat yayıb.

Məlumatda Vaşinqtonun "Ukraynaya vəd edilən iqtisadi yardımın operativ çatdırılması" məsələsində Avropa Komissiyası və Avropa İttifaqına üzv ölkələrlə tez-tez əlaqə saxladığı deyilir.

"Biz Kiyevin bütün tərəfdaşlarını vəd edilən yardımı Ukraynaya daha tez çatdırmağa, öhdəliklərini artırmağa və kreditlər əvəzinə qrant şəklində yardım ayırmasına çağırırıq", – deyə adının açıqlanmasını istəməyən mənbə bildirib. ABŞ administrasiyasının nümayəndələri BMT Baş Assambleyasının sessiyası çərçivəsində avropalı həmkarları ilə görüşlər keçirib və onları Kiyevə vəsaitin ayrılmasını gecikdirən maneələri aradan qaldırmağa çağırıb.

Qəzetin məlumatına əsasən, Vaşinqton Kiyevə 8,5 milyard dollar həcmində yardım edib və daha 4,5 milyard dollar qrant ayırmaq üçün konqresə sorğu göndərib. Brüssel isə may ayında öhdəsinə götürdüyü 9 milyard avrodan 1 milyardını ödəyib və yaxın zamanda Kiyevə 5 milyard avro ayırmağa hazır olduğunu, qalan 3 milyard avronu ilin sonunadək köçürəcəyini bildirib.

## FİNLANDİYA RUSİYADAN OLAN TURİSTLƏR ÜÇÜN SƏRHƏDİNİ BAĞLAYIR




Finlandiya hökuməti 30 sentyabrdan etibarən rusiyalı turistlər üçün sərhədlərin bağlanmasına dair qərarı təsdiqləyib.

"Polşa və Baltikyanı ölkələrin rusiyalı turistlərə sərhədləri bağlamasından sonra ölkələrarası münasibətlərə xələl gəlməməsi üçün Finlandiya da bu qərarı qəbul etdi", – deyə Finlandiya XİN rəhbəri Pekka Haavisto bildirib.

Rusiya vətəndaşlarının turist vizaları ləğv olunacaq. Finlandiya vizası almış Rusiya vətəndaşları digər ölkələr vasitəsilə Avropaya keçə bilməyəcəklər. Həmçinin o da qeyd olunub ki, Rusiya vətəndaşları bir sıra istisna hallarda Finlandiyaya gələ biləcək. Onlar ailə vəziyyəti ilə əlaqədar, təhsil, iş, müalicə ilə bağlı və humanitar səbəblərlə sərhədi keçə biləcəklər.

Xatırladaq ki, Rusiyanın quru sərhədlərinin açıq olduğu yeganə Avropa İttifaqı ölkəsi Finlandiya idi. Bundan öncə isə Latviya, Litva, Estoniya və Polşa kimi ölkələr rusların ölkəyə daxil olmasını məhdudlaşdırmışdılar.

## "ŞİMAL AXINI" TƏBİİ QAZ BORU KƏMƏRLƏRİNDƏ OLAN SIZMALAR ƏVVƏLCƏDƏN PLANLAŞDIRILIB"



"Şimal axını-1" və "Şimal axını-2" təbii qaz boru kəmərlərində meydana gələn sızmalar çox güman ki, əvvəlcədən planlaşdırılmış addımlar nəticəsində yaranıb.

Bu fikirlər İsveçin Baş naziri Maqdalena Andersson, xarici işlər naziri Ann Linde və müdafiə naziri Piter Hultkvistin birgə keçirdiyi mətbuat konfransında səsləndirilib.

Konfransda partlayışların qəsdən törədildiyini iddia edən hökumət üzvləri təhlükəsizlik vəziyyətini nəzərə alaraq hadisənin ciddiliyini diqqətə çatdırıblar. M.Andersson qeyd edib ki, mövcud vəziyyətlə əlaqədar İsveç Danimarka, Almaniya, Norveç, Finlandiya və ABŞ, həmçinin Aİ, NATO ilə sıx əlaqə saxlayır.

"Mən təhlükəsizlik siyasəti üzrə hökumət şurasını yığacağam və İsveçin müvafiq orqanları bütün lazımi tədbirləri görəcək. İsveç Polis Departamenti də mümkün təxribatla bağlı ilkin araşdırmalara başlayıb. Eyni zamanda vurğulamaq istəyirəm ki, bu, İsveçə qarşı hücum deyil. Partlayışlar İsveçdə deyil, bizim iqtisadi zonamızda baş verib", - deyə Maqdalena Andersson bildirib.

Baş nazir həmçinin İsveç xalqını ayıq-sayıq olmağa, etibarlı mənbələrdən məlumat almağa və İsveç silahlı qüvvələrinin fəaliyyəti ilə bağlı məlumat yaymamağa çağırıb.

# CƏMİYYƏT və DİN

№ 09 (371) SENTYABR 2022-ci il


## QƏDİM MİSİR KRALİÇASI NEFERTİTİNİN SƏRDABƏSİ TAPILIB



Arxeoloqların uzun illər qədim Misir kraliçası Nefertitinin sərdabəsinin aşkar edilməsi istiqamətində tədqiqatları bir nəticə verməmişdi. Bu günlərdə məşhur misirşünas Zahi Havas bəyan edib ki, bu sərdabə tapılıb və kraliçanın mumiyasının müəyyən edilməsi üçün DNT analizləri aparılır.

Misirli alim bu ilin dekabrında Luksor ətrafında aşkar edilmiş qədim əşyaların Kral Tuta aid olduğunu bildirib. O əlavə edib ki, həmin ərazidə çox sayda mumiya da aşkar edilib. “Bizdə artıq fironların 18-ci sülaləsinin mumiyalarının DNT-si var. Bu nümunələr II Axenatendən III Amenhotepə qədər dövrə aiddir. Bu ərazidə əfsanəvi firon Tutanhamonun anası Nefertitinin mumiyasının da olduğuna əminəm və oktyabrda DNT-nin nəticələrinə əsasən bunu rəsmən elan edəcəyik”, - deyə Havas bildirib.

Misirli alim qeyd edib ki, sərdabədə 10 yaşlı bir uşağın da mumiyası var. Güman edilir ki, bu, Tutanhamonun qardaşıdır.

Nefertiti eramızdan əvvəl 1370-1330-cu illər arasında yaşayıb. Gözəllik rəmzi olan kraliça firon Tutanhamonun ögey anası və Qədim Misirin firavanlıq dövründə hökmranlıq etmiş firon Axenatonun arvadı idi.

## SÜNİ İNTELLEKT BƏDİİ FİLM YARADACAQ



Alman eksperimentator Fabian Ştelzer süni intellektdən istifadə edərək film yaradacaq. Müəllif gələcək “Duz” adlı filmindən bir səhnə təqdim edib.

Onun sözlərinə görə, film tamamilə neyron şəbəkələr dəsti ilə yaradılacaq. Bu şəbəkələr sayəsində görüntü və personajların səsləri, eləcə də xüsusi effektlər hazırlanacaq.

F.Ştelzer kino sahəsində yenilikçi olmaq niyyətindədir və süni intellektin onun ssenarisi üzrə tammetrajlı film yarada biləcəyinə inanır.

Eksperimentatorun yaradacağı “Duz” layihəsi kosmonavtların qəribəliklərlə zəngin olan planetdəki sərgüzəştlərinə həsr olunacaq. Filmin davamı isə izləyicilərdən asılıdır. Müəllifin tapıntısına görə, tamaşaçılar ideyadan ilhamlanaraq neyron şəbəkələr üçün mətn təlimatlarını özləri tərtib edəcəklər.

## DÜNYANIN ƏN ÇOX SƏHİFƏLİ KİTABI NƏŞR OLUNUB




Dünyanın ən çox səhifəli kitabı “One Piece” (“Bir Parça”) bir cilddə nəşr olunub.

Naşir İlan Manouaş 21 min 450 səhifəlik əsərə kitab kimi deyil, “heykəltəraşlıq materialı” kimi yanaşdığını bildirib. Kitabın müəllifi Eiiçiro Odadır.

Qeyd edək ki, 50 nüsxə ilə buraxılan məhdud tirajlı kitabın satışı bitib. Sentyabrın 7-də satışa buraxıldıqdan bir neçə gün sonra kitabın bütün nüsxələri satılıb. Kitabın müəllifi – 47 yaşlı Eiiçiro Odanın sərvəti təqribən 200 milyon dollardır.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Oktyabr - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20**.

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## İNDİ AVROPANIN ƏN UZUNMÜDDƏTLİ KRALİÇASI ODUR



Britaniya kraliçası II Elizaveta 96 yaşında vəfat etdikdən sonra "Avropada ən uzun müddətli padşahlıq edən şəxs" ünvanına Danimarka kraliçası sahib olub.

Hazırda bu ünvanın sahibi kraliça İkinci Marqretadır. O, 1972-ci ildə Danimarka taxtına əyləşib.İkinci Marqareta həm də Danimkarkanın ilk kraliçasıdır. 1952-ci ilə qədər ölkənin konstitusiyası qadınlara kraliça olmaq şansı tanımayıb.

1953-cü ildə isə qanun dəyişdirilib və hazırkı kraliçanın taxta çıxması üçün zəmin hazırlanıb.

İkinci Marqaretanı izləyən ikinci şəxs isə elə onun qohumudur. Söhbət İsveç kralı 16-cı Karl Qustavdan gedir.

## ƏDƏBİYYAT ÜZRƏ NOBEL MÜKAFATININ QALİBİ KİM OLACAQ?

Bu il ədəbiyyat üzrə Nobel mükafatının qalibi fransız yazıçı Mişel Uelbek ola bilər.

O, ən yüksək əmsalla bukmekerlərin rəyində birincidir.

İkinci yerdə isə hind əsilli ingilis yazıçısı Salman Rüşdi qərarlaşıb, digər yerləri Amerika yazıçısı Stiven Kinq və keniyalı Nquqi va Thionqo bölüşür.

Xatırladaq ki, bu il ədəbiyyat üzrə Nobel mükafatının qalibi oktyabrın 6-da açıqlanacaq.

Ötən il ədəbiyyat üzrə Nobel mükafatının qalibi tanzaniyalı yazıçı Əbdülrəzzaq Qurna olub.

### Yadigar söz

***Avraam Linkoln***

*Qəzəbin alovu əvvəlcə sahibini yandırar. Sonrakı qığılcımı düşmənə ya çata, ya çatmaya.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV**
**Raman DADAŞOV** (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində** yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894